www.amu.edu.az

# TƏBİB

Təsisçi: Azərbaycan Tibb Universiteti — Qəzet 1933-cü ildən çıxır — №-18 (1779) 31 oktyabr 2023-cü il



## II Beynəlxalq Bakı Süd Vəzi Xərçəngi Konqresi keçirilib

**Rektor, professor Gəray Gəraybəyli: “Konqresin məqsədi qadın sağlamlığı məsələlərini diqqət mərkəzinə gətirməkdir”**

səh. 2

### Səhiyyə naziri ölkəmizə qarşı əsassız ittihamlara cavab verib

səh. 2

### Təhsil Tələbə Krediti Fondunun nümayəndələri tələbələrlə görüşüb

səh. 3

### Tanınmış alim oftalmologiya mövzusunda mühazirə oxuyub

səh. 4



### Kocaeli Universitetinin rektoru ATU-nun qonağı olub

İki universitet arasında əməkdaşlığın mümkün perspektivləri haqda müzakirələr aparılıb

səh. 2

### Tələbələrin elmi fəaliyyəti diqqət mərkəzindədir

*TEC-in geniş toplantısında maraqlı müzakirələr aparılıb*

səh. 3

### “Mən bunu necə edirəm?” layihəsinin tədbirləri davam edir

*İndiyədək layihə çərçivəsində 20-ə yaxın mövzu əhatə olunub*

səh. 5



### Vətənin həkim oğlu

Ona həvalə olunan bütün işlərin öhdəsindən layiqincə gələn Ceyhun Əhmədxanov helikopter qəzasında şəhid olub

səh. 6

# Səhiyyə naziri ölkəmizə qarşı əsassız ittihamlara cavab verib

**Azərbaycan Respublikasının səhiyyə naziri Teymur Musayev Astanada keçirilən Ümumdünya Səhiyyə Təşkilatının Avropa Regional Komitəsinin 73-cü sessiyasında Fransa və Ermənistan nümayəndələrinin ölkəmizin ünvanına səsləndirdikləri əsassız ittihamlara cavab verib.**




Teymur Musayev qeyd edib ki, Azərbaycan Respublikasının suverenliyinin və konstitusiya quruluşunun bərpa olunması, ərazilərin qanunsuz erməni hərbi birləşmələrindən təmizlənməsi məqsədi ilə anti-terror mahiyyətli tədbirlər həyata keçirilib.

Müxtəlif beynəlxalq təşkilatların nümayəndələrinin Qarabağ regionuna bir sıra səfərləri olub. Bu səfərlərin nəticəsində hazırlanan hesabatlarda qeyd olunub ki, hər hansı bir mülki infrastruktura, o cümlədən məktəb və xəstəxanalara heç bir ziyan dəyməyib. Yerli əhali onlara qarşı hər hansı bir zorakılıq, həmçinin mülki və kənd təsərrüfatı obyektlərinin dağıntısı faktlarının olmadığını missiyalara bildirib.

Eyni zamanda vurğulanıb ki, UNHCR və Qırmızı Xaç Komitəsinin Ermənistan ofisinin də hesabatlarında bu məsələ öz əksini tapıb. Həmçinin Ermənistan Baş nazirinin 21 və 23 sentyabrda səsləndirdiyi bəyanatlarında mülki əhali üçün hər hansı bir təhlükə olmadığı bildirilib. Bütün bu faktlar bir daha sübut edir ki, Fransa və Ermənistan nümayəndələrinin səsləndirdikləri ittihamlar əsassızdır.

Yeri gəlmişkən, sessiya çərçivəsində keçirilən seçki nəticəsində Azərbaycan ÜST-nin Regional Qiymətləndirmə Qrupuna üzv seçilib.

Regional Qiymətləndirmə Qrupuna üzv seçilməyimiz, Azərbaycanın Ümumdünya Səhiyyə Təşkilatı kimi nüfuzlu bir qurumla sıx və səmərəli əməkdaşlığının uğurlu nəticəsidir.

# II Beynəlxalq Bakı Süd Vəzi Xərçəngi Konqresi keçirilib

## Rektor, professor Gəray Gəraybəyli: “Konqresin məqsədi qadın sağlamlığı məsələlərini diqqət mərkəzinə gətirməkdir”






**Oktyabrın 27-28-də “Hilton” otelində Azərbaycan Tibb Universiteti, Milli Onkologiya Mərkəzi, ATU-nun Onkoloji Klinikası və Azərbaycan Süd Vəzi Xəstəlikləri Mütəxəssisləri Assosiasiyasının birgə təşkilatçılığı ilə II Beynəlxalq Bakı Süd Vəzi Xərçəngi Konqresi keçirilib.**

Azərbaycanın Dövlət Himni səsləndirildikdən və Vətənimizin suverenliyi, torpaqlarımızın azadlığı uğrunda canlarını fəda etmiş şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edildikdən sonra Azərbaycan Tibb Universitetinin rektoru, professor Gəray Gəraybəyli giriş nitqi ilə çıxış edib. Rektor bildirib ki, bu il Azərbaycan üçün çox əlamətdardır: “Ulu Öndər Heydər Əliyevin anadan olmasının 100 illiyini qeyd edirik. Həmçinin Azərbaycan səhiyyəsində, tibb elmində dərin iz qoymuş akademik Zərifə xanım Əliyevanın da bu il 100 illiyi tamam olub.

Həmçinin bu il Azərbaycan xalqının və bütün türk dünyasının 30 il ərzində ürəkağrısı olan Qarabağ məsələsinə də nöqtə qoyuldu və 12 gün əvvəl, oktyabrın 15-də Prezidentimiz İlham Əliyev cənabları Xankəndidə Azərbaycanın üçrəngli bayrağını ucaltdı.

Konqresin təşkilində məqsəd onkologiyanın mühüm sahələrindən olan süd vəzi xəstəlikləri, o cümlədən süd vəzi xərçəngi, ümumiyyətlə qadın sağlamlığı məsələlərini müzakirə etmək və müxtəlif ölkələrin onkoloq, mammoloq və ginekoloqları arasında məhsuldar dialoq yaratmaqdır.

Konqresin elmi proqramı Azərbaycan Tibb Universitetinin Onkoloji Klinikası, Milli Onkologiya Mərkəzi və Azərbaycan Süd Vəzi Xəstəlikləri Mütəxəssisləri Assosiasiyası tərəfindən, süd vəzi xəstəliklərinin müalicəsi üzrə Türkiyənin aparıcı mütəxəssislərin ilə sıx əməkdaşlıq çərçivəsində ərsəyə gəlib və ən aktual mövzuları əhatə edir”.

Professor G.Gəraybəyli konqresin işində dünyaca tanınmış mütəxəssislərin iştirak etdiyini qeyd edib. Bildirib ki, Türkiyə, ABŞ, Almaniya, Avstriya, Macarıstan, Hindistan və digər ölkələrdən təşrif buyurmuş ekspertlərin məruzələri böyük marağa səbəb olacaq və onkologiyanın bu sahəsinin inkişafına mühüm töhfə verəcək: “Konqres çərçivəsində iki təlim kursu da keçiriləcək ki, onlar süd vəzi xəstəliklərinin radioloji görüntülənməsi və onkoplastik cərrahi məsələlərin daha dərindən araşdırılmasına imkan yaradacaq.

Ümidvaram ki, elmi proqramın genişliyi, radioloji görüntüləmə və onkoplastik cərrahiyyə kursu, habelə Bakı şəhərinin təbii gözəlliyi və azərbaycanlıların qonaqpərvərliyi gözləntilərinizi və ümidlərinizi doğruldacaq. Tədbirin ərsəyə gəlməsində göstərdikləri dəstəyə və böyük əməyə görə Milli Onkologiya Mərkəzinin rəhbəri, akademik Cəmil Əliyevə, Milli Məclisin Səhiyyə komitəsinin sədri, ATU-nun Onkologiya Klinikasının rəhbəri, akademik Əhliman Əmiraslanova, İ.M.Seçenov adına Birinci Moskva Dövlət Tibb Universitetinin Bakı Filialının rektoru, professor Əziz Əliyevə, Milli Onkologiya Mərkəzinin Qadın Sağlamlığı Mərkəzinin rəhbəri, professor Sevinc Rəhimovaya, ATU-nun Onkoloji Klinikasının baş həkimi, Təşkilat Komitəsinin sədri, dosent Nigar Mehdiyevaya və Süd Vəzi Xəstəlikləri Mütəxəssisləri Assosiasiyasının sədr müavini, dosent Həqiqət Vəliyevaya təşəkkürümü bildirirəm.

Bu konqresin təşkili nəinki səmərəli fikir mübadiləsinin aparılması və faydalı fəaliyyət proqramının hazırlanmasına, həm də dünyanın bu sahədəki aparıcı mütəxəssislərinin ölkəmizlə və tibb sahəsindəki nailiyyətlərimizlə, bizim imkanlarımız və resurslarımızla tanış olmasına imkan verəcək”.

Sonra Milli Məclisin Səhiyyə komitəsinin üzvləri Müşfiq Məmmədli, Sədaqət Vəliyeva çıxış ediblər. Onlar ölkəmizdə həyata keçirilən səhiyyə islahatlarından, tibb sahəsi üzrə peşəkar mütəxəssislərin yetişdirilməsindən, dünyanın aparıcı tibb müəssisələri ilə elmi-kadr mübadiləsindən danışıb, bu beynəlxalq tədbirin əhəmiyyətini vurğulayıblar.

Türkiyənin Kocaeli Universitetinin rektoru, professor Nuh Zafer Canturk, Marmara Universitetinin Tibb fakültəsinin Ümumi cərrahiyyə kafedrasının professoru Bahadır Güllüoğlu, Acıbadem Molekulyar Patologiya Laboratoriyasının direktoru, professor M.Cengiz Yekicler də öz çıxışlarında aktual mövzuya həsr olunmuş konqresin əhəmiyyətini qeyd edib, Azərbaycan Tibb Universiteti ilə əməkdaşlıq əlaqələrinin qurulması, kadr hazırlığı və tələbə mübadiləsindən söhbət açıblar.

İki günlük konqres çərçivəsində dünyanın bir çox ölkələrini təmsil edən alim-mütəxəssislərin maraqlı məruzələri dinlənilib, təlim kursları təşkil olunub.

# Kocaeli Universitetinin rektoru ATU-nun qonağı olub



Kocaeli Universitetinin rektoru, Süd vəzi Cərrahları Cəmiyyətinin sədri, SENATÜRK-ün vitse-prezidenti, cərrah-onkoloq, professor Nuh Zafer Canturkun başçılıq etdiyi nümayəndə heyəti Azərbaycan Tibb Universitetinin qonağı olub.

ATU-nun rektoru, professor Gəray Gəraybəyli ilə görüşdə iki universitet arasında qarşılıqlı fəaliyyət, əməkdaşlığın mümkün perspektivləri haqqında müzakirələr aparılıb.

Rektor G.Gəraybəyli qonaqlara rəhbəri olduğu təhsil müəssisəsi haqda məlumat verərək, universitetin fakültələri, mövcud ixtisaslar, tələbələrin həm tədrisi, həm də praktikası üçün yaradılan şərait barədə danışıb. Hazırda ATU-nun 6 fakültəsində 7 mindən çox tələbənin təhsil aldığını, onların 2 mindən çoxunun əcnəbilər olduğunu bildirib. Professor G.Gəraybəyli əcnəbi tələbə sayına görə ATU-nun respublikada birinci yerdə olduğunu da qeyd edib.

Görüşdə ATU-nun Beynəlxalq Əlaqələr üzrə prorektoru, dosent Orxan İsayev, Tədris Onkoloji Klinikanın baş həkimi, dosent Nigar Mehdiyeva, Onkologiya kafedrasının assistenti Həqiqət Vəliyeva iştirak edirdilər.

**Azərbaycan Tibb Universiteti ilə Türkiyənin Batman Universiteti arasında anlaşma sazişi imzalanıb. Beynəlxalq tələbə mübadiləsi proqramlarını inkişaf etdirmək məqsədi daşıyan bu razılaşma ATU rektoru, professor Gəray Gəraybəyli ilə Batman Universitetinin rektoru, professor İdris Demirin görüşü zamanı əldə olunub.**



# Batman Universiteti ilə saziş imzalanıb

Görüş zamanı rektor G.Gəraybəyli Erasmus Proqramı çərçivəsində imzalanın bu müqavilənin tələbələri beynəlxalq təcrübə qazanmağa həvəsləndirmək, onlara yeni fürsətlər qazandırmaq məqsədi daşıdığını bildirib. O, anlaşma sayəsində iki universitet arasında təkcə tələbə mübadiləsi həyata keçirilməyəcəyini, həm də yeni ixtisasların təkmilləşdirilməsi yönündə işlər aparıla biləcəyini, birgə elmi tədqiqatların icra olunacağını istisna etməyib.

Rektor İ.Demir bu müqavilənin tələbələrə mədəni müxtəliflik, fərqli təhsil imkanları və beynəlxalq şəbəkələrə qoşulmaq imkanları yaradacağını vurğulayıb. O, bu cür əməkdaşlığın universitetlər arasında əlaqələrin möhkəmlənməsinə, elmi araşdırmalara töhfə verəcəyini də bildirib.

# ATU-nun rektoru Ege Universitetinin prorektorunu qəbul edib

**Türkiyənin Ege Universitetinin prorektoru, professor Mehmet Ersan Azərbaycan Tibb Universitetinin qonağı olub. O, ATU-nun rektoru, professor Gəray Gəraybəyli ilə görüşüb.**

Rektor universitetin fəaliyyəti, yeni təşkil edilən ixtisaslar və tətbiq olunan proqramlarla bağlı qonağa ətraflı məlumat verib. Həmçinin Ege Universiteti ilə əldə olunmuş razılaşmaya əsasən, tibb bacısı və fizioterapiya ixtisası üzrə ATU-da həyata keçiriləcək proqramlardan və ikili diplomların tanınmasından söhbət açıb: “Ege Universitetinin rəhbərliyi ilə danışıqlar aparmışdıq ki, tibb bacısı və fizioterapiya üzrə proqramların tətbiqinə və ikili diplomların həyata keçirilməsinə nail olaq. Biz yeni açılmış ixtisasların proqramlarını Türkiyədə tətbiq olunan proqramların əsasında yaratmışıq. Onlar dəyişə bilər, bu və ya digər ölkəyə adaptasiyası mümkündür. İstərdim ki, bu boşluğu aradan qaldıraq və yeni təşkil olunmuş ixtisasla bağlı ikili diploma nail olaq”.

Professor Mehmet Ersan artıq bu barədə lazımi sənədlərin hazırlandığını və texniki məsələlərlə bağlı işlərin aparıldığını diqqətə çatdırıb.

Görüşdə universitetlər arasında tələbə-müəllim mübadiləsi və birgə elmi-tədqiqat işlərinin aparılması ilə bağlı məsələlər də müzakirə olunub.



Görüşdə ATU-nun Beynəlxalq əlaqələr üzrə prorektoru, dosent Orxan İsayev də iştirak edib.

Daha sonra professor Mehmet Ersan İnsan anatomiyası və tibbi terminologiya kafedrasında və Elektron Mikroskopiya Laboratoriyasında olub, mövcud şəraitlə yaxından maraqlanıb.

# Təhsil Tələbə Krediti Fondunun nümayəndələri tələbələrlə görüşüb

**Oktyabrın 18-də Təhsil Tələbə Krediti Fondunun nümayəndələri Azərbaycan Tibb Universitetinin tələbələri ilə görüşüb.**

Maarifləndirmə məqsədilə təşkil olunan tədbiri universitetin Tədris və müalicə işləri üzrə prorektoru, professor Sabir Əliyev açaraq, bu görüşün əlamətdar bir günə - Azərbaycanın Dövlət Müstəqilliyinin Bərpası Gününə təsadüf etdiyini vurğulayıb. O, tarixə ekskurs edərək ötən əsrdə 2 dəfə müstəqillik qazandığımızı, sonuncu müstəqilliyimizin əbədi olduğunu vurğulayıb və onun qorunmasında Ulu Öndərin müstəsna xidmətlərindən danışıb. Eyni zamanda Ali Baş Komandan, möhtərəm Prezidentimiz İlham Əliyevin rəhbərliyi altında aparılan 44 günlük Vətən müharibəsinin, eləcə də yaxın günlərdə baş verən hadisələri son 200 illik tariximizin ən şərəfli səhifəsi kimi dəyərləndirib.

Bundan sonra ölkə başçısının müvafiq fərmanı ilə Təhsil Tələbə Krediti Fondunun (TTKF) yaradılmasının əhəmiyyətindən söz açan prorektor bildirib ki, fond yaradılana qədər bəzən hətta çox istedadlı tələbələrimiz təhsil haqqını ödəməkdə çətinlik çəkirdi. Bu problemin tədricən öz həllini tapdığını diqqətə çatdıran professor S.Əliyevin sözlərinə görə, universitetimizdə bu fonddan istifadə edənlər olsa da, yetərincə deyil. Prorektor onu da qeyd edib ki, Azərbaycan Tibb Universiteti 600-dən çox bal toplayan tələbələrin sayına görə ali məktəblər arasında birincidir: "Hər il 600-dən çox bal toplayan 350-400 tələbə universitetimizə qəbul olur ki, bu da çox yaxşı göstəricidir. Onlar əlaçı tələbələrdir. Prezident təqaüdçülərinin sayına görə də ilk yerlərdəyik. İndiyədək standart təhsil tələbə kreditindən 342, sosial təhsil tələbə kreditindən isə 112 tələbəmiz yararlanıb. Düşünürəm ki, gələcəkdə fondun xidmətlərindən daha çox yararlanmaq mümkündür".



TTKF İdarə Heyətinin sədr müavini Tahir Xələfov fondun Elm və Təhsil Nazirliyinin tabeliyində fəaliyyət göstərən bir qurum olduğunu söyləyib. Nizamnamə kapitalının 80 milyon manatdan başladığını, hazırda 100 milyondan çox olduğunu bildirərək, kreditlərin girovsuz, təminatsız, aşağı faizlə uzun müddətə verildiyini, həmçinin əlaçı tələbələrə 50 faiz bağışlama güzəştinin, möhlət dövrlərinin olduğunu deyib. Bundan əlavə, fonda müraciət qaydaları, kredit almaq üçün tələb olunan ümumi şərtlər və təhsil tələbə kreditlərinin verilməsi meyarları barədə tədbir iştirakçılarına ətraflı məlumat verib. Bildirib ki, əsas məqsəd ölkədə təhsilin hamı üçün, xüsusilə də əhalinin aztəminatlı təbəqələrindən olan şəxslər üçün əlçatanlığını təmin etməkdir.

Fondun sədr müavini həyata keçirilən layihələr haqqında da ətraflı məlumat verərək tələbələri onlar üçün yaradılan imkanlardan faydalanmağa çağırıb.

TTKF-in təhsil müəssisələri ilə iş üzrə aparıcı mütəxəssisi Ağca Məmmədova qurumun fəaliyyət istiqamətləri, fonda müraciət qaydaları, təhsil tələbə kreditlərinin verilməsi meyarları barədə geniş təqdimatla çıxış edib. A.Məmmədova təhsil tələbə kreditinin növləri, müraciət qaydaları, kreditin verilməsi proseduru, təhsil tələbə krediti ilə bağlı digər məsələlərə də aydınlıq gətirib.

Tədbirin sonunda tələbələrin sualları cavablandırılıb.

Görüşdə ATU-nun Baş mühasibi İlqar Mehrabov və fakültə dekanlıqlarının təmsilçiləri də iştirak ediblər.

# Tələbələrin elmi fəaliyyəti diqqət mərkəzindədir

## TEC-in geniş toplantısında maraqlı müzakirələr aparılıb

**Oktyabrın 18-də ATU-nun Tələbə Elmi Cəmiyyətinin rəhbərliyi ilə üzvləri arasında geniş toplantı keçirilib. Toplantı iştirakçılarını 18 Oktyabr - Müstəqilliyin Bərpası Günü münasibətilə təbrik edən Tələbə Elmi Cəmiyyətinin Elmi rəhbəri, tibb elmləri doktoru Müşfiq Həsənov söyləyib ki, bu hadisə dövlətçilik tariximizdə böyük əhəmiyyət kəsb edir və ölkəmizin inkişaf yoluna qədəm qoyması məhz müstəqilliyimizlə ölçülür.**

Çünki elm-təhsil, mədəniyyət və s. sahələrdə azad və müstəqil dövlət olaraq dünyanın aparıcı ölkələri ilə sərbəst rəqabət apara bilirik. Bundan sonra TEC-in hazırkı durumu və gələcək fəaliyyət proqramı haqqında ətraflı məlumat verən M.Həsənov bildirib ki, təşkilatın sıraları ildən-ilə genişlənir və qaydalar da günün tələblərinə uyğun olaraq yenilənir. O, əlavə edib ki, universitetimizdə təhsil alan xarici tələbələrin də elmi-tədqiqat işlərinə marağını nəzərə alaraq təşkilata cəlb etmək məqsədəuyğun haldır.

Tədbirdə çıxış edən II Müalicə-profilaktika fakültəsinin dekanı, dosent İsrail Məhərrəmbəyli hazırkı TEC-i öz tələbəlik illəri ilə müqayisə edərək bildirib ki, bu gün tədqiqat işi aparan tələbələr üçün universitetdə əlverişli şərait var. Onlar öz axtarışlarını daha müasir üsullarla həyata keçirir və daha aktual mövzular seçirlər. Bundan başqa, ənənəvi olaraq hər il keçirilən TEC-in konfranslarında çıxış edən tələbələrin elmi məruzələri toplu halında çap olunur ki, bu da daha bir stimuldur.



Universitetin müəllimləri Zülfiyyə İsmayılova və Aqil Əliyev TEC-in faydalı fəaliyyətindən bəhs edib, yeniliklər barədə məlumat veriblər. Onlar çıxışlarında vurğulayıblar ki, son dövrlər TEC-in konfranslarına təqdim edilən məruzələrin əksəriyyəti öz aktuallığı, müasirliyi və təcrübi əhəmiyyəti ilə fərqlənir və təbabətdə ehtiyac duyulan problemlərə həsr olunur.

Toplantıda qərara alınıb ki, belə görüşlər bundan sonra hər ay keçirilsin və cəmiyyətin fəaliyyəti, həmçinin keçiriləcək tədbirlər əvvəlcədən müzakirə olunub rəhbərliyə çatdırılsın. Təklif olunub ki, il ərzində çoxsaylı tədqiqat işi aparan tələbəyə "İlin ən yaxşı tədqiqatçı tələbəsi" adı və xüsusi pul mükafatı verilsin.

Bildirilib ki, TEC-in fəaliyyət proqramına daxil olan məsələlərdən biri də ənənəvi kursların onlayn təşkili, tələbə və rezidentlərin bu xətt üzrə xaricdə kurslara göndərilməsi, eləcə də qabaqcıl ölkələrin tibb mütəxəssisləri ilə təcrübələrin bölüşdürülməsi, universitetlər və cəmiyyətlər arasında koordinasiyanın qurulmasıdır ki, bu da tibbin aktual sahələrinə dair elmi araşdırmaların aparılması və beynəlxalq tibb təhsilinə inteqrasiya baxımından əhəmiyyətlidir.

# Müəllimlərin ingilis dili bilikləri qiymətləndirilib

**Azərbaycan Tibb Universitetində ingilis dilində dərs deyən və gələcəkdə bu dildə tədris aparacağı planlaşdırılan müəllimlərin dil biliklərinin yoxlanılması üçün imtahan keçirilib. Məqsəd universitetimizdə ingilis dilində təhsil alan əcnəbi tələbələr üçün tədrisin keyfiyyətinin daha da artırılması, həmçinin müəllimlərin və kafedralara yeni qəbul olunan gənc əməkdaşların özünü inkişafına dəstək olmaqdır.**

İki hissədən ibarət imtahanda müəllimlərin həm yazılı, həm də şifahi ingilis dili bilikləri yoxlanılıb. Sınaq prosesi tender nəticəsində qalib olmuş şirkətin ekspertləri tərəfindən aparılıb. İmtahanın nəticələrinə əsasən, müəllimlərin müəyyən qrupu üçün universitet tərəfindən ingilis dili kursları təşkil olunacaq.

Qeyd edək ki, hazırda ATU-da 55 ölkədən 2900-ə yaxın əcnəbi vətəndaş təhsil alır. Onların 45 faizi ingilis dilində oxuyur. Universitetin Böyük Elmi Şurasının qərarına əsasən, hər 3 ildən bir ATU-da ingilis dilində tədris aparan müəllimlərin ingilis dili biliklərinin monitorinqi aparılır. Bundan əlavə, 2024-2025-ci tədris ilindən etibarən ingilis dilində dərs keçmək hüququ qazanan müəllimlərin əmək haqlarının differensiallaşdırılması planlaşdırılır.



# ATU-nun Prezident təqaüdçüləri

**2023/2024-cü tədris ilində Azərbaycan Tibb Universitetinə daxil olmuş Prezident təqaüdçüsü tələbələrimizi tanıyaq. Qeyd edək ki, universitetimiz bu il Prezident təqaüdçülərinin sayına görə ölkə universitetləri arasında II yerdədir.**

1. Məhərrəmli Turani
2. Hüseynova Xədicə
3. Mirzəyeva Gülüstan
4. Şirin Türkan
5. Qüdrətli Nihad
6. Hüseynli Səkinə
7. Verdiyeva Fəridə
8. Məmmədov Nurlan
9. Dədəyeva Telli
10. Əzimova Günay
11. Həsənzadə Fəxri
12. Əhmədzadə Rəsul
13. Əhmədova Nurgül
14. Ağayev Maksim
15. Ömürova Səbinə
16. Ağayeva Aysu
17. Kərimli Samir
18. Xəlilova Səfurə
19. Məmmədli Əli
20. Rəhimova Fidan
21. Qarayeva Fatimə
22. Miryusifzadə İsmayıl
23. Hüseynov Əli
24. Əliquliyeva Ləman
25. Əliyeva Solmaz

Qəbul imtahanlarında yüksək bal toplayaraq, Prezident təqaüdünə layiq görülmüş tələbələrimizi təbrik edir və uğurlar arzulayırıq!

# "COVID-19. Əsrin xəstəliyi" monoqrafiyasının təqdimatı keçirilib

**Professor Lalə Allahvediyeva dünyada ilk dəfə postkovid sindromunun reabilitasiyasından bəhs edib**



**ATU-nun Allerqologiya və immunologiya kafedrasının müdiri, Əməkdar elm xadimi, Əməkdar həkim, Azərbaycan Pediatrlar Assosiasiyasının fəxri vitse-prezidenti, tibb elmləri doktoru, professor Lalə Allahverdiyevanın dünyada ilk dəfə postkovid sindromunun reabilitasiyası mövzusunda ərsəyə gətirdiyi monoqrafiya bu sahədə ümumiləşdirilmiş elmi əsər kimi əhəmiyyətlidir.**

Müəllifin öz tədqiqatlarının nəticələrinin elmi-nəzəri və praktik təhlil edildiyi "COVID-19. Əsrin xəstəliyi" nəşrini Azərbaycan tibb elminin növbəti uğuru hesab etmək olar.

Koronavirusun yaratdığı problemlərlə bağlı səhiyyənin qarşısında duran vəzifələr və postkovid dövründə insanların sağlamlığının təmin olunmasında yeni istiqamətlərin araşdırıldığı kitabın bu günlərdə Naxçıvan Dövlət Universitetində (NDU) təqdimatı keçirilib.

NDU-nun rektoru Elbrus İsayev təqdimat iştirakçılarını salamlayaraq, belə dəyərli kitabın universitetdə təqdimatından məmnunluğunu ifadə edib. Rektor müəllifin ərsəyə gətirdiyi kitabın bu sahədə ilk olduğunu, pandemiya və ondan sonrakı dövrdə xəstələrdə əmələ gələn fəsadların müalicəsində əvəzsiz olduğunu qeyd edib.

Təqdimatda professor Lalə Allahverdiyeva "Postkovid sindromunun reabilitasiya müalicəsi" mövzusunda çıxışında COVID-19 pandemiyasından sonra xəstələrdə postkovid sindromunun müşahidəsi halları və bu xəstələrin Duzdağ Fizioterapiya Mərkəzində reabilitasiyasının müsbət nəticələri barədə ətraflı məlumat verib.

Azərbaycan Pediatrlar Assosiasiyasının (APA) sədri, ATU-nun dosenti Təranə Tağı-zadə COVID-19 pandemiyasının bioloji və tibbi aspektləri üzrə ən son elmi məlumatların təhlilinin aparıldığı kitabı müəllifin uğurlu layihəsi kimi qiymətləndirib.

NDU-nun Təməl tibb fənləri kafedrasının müdiri, dosent İlhamə Mustafayeva və Ümumi təbabət və klinik fənlər kafedrasının müdiri, dosent Gültəkin Əliyeva da "COVID-19. Əsrin xəstəliyi" kitabı haqqında fikirlərini tədbir iştirakçıları ilə bölüşüblər.

Göstərilən diqqətə görə universitetin rəhbərliyinə minnətdarlığını bildirən müəllif kitabı ali təhsil ocağının Elmi Kitabxanasına hədiyyə edib.

# Ağırlaşma və ölüm hallarını araşdıran komissiyanın növbəti iclası keçirilib



**ATU-nun Tədris Cərrahiyyə Klinikasının direktoru Cavid Paşayevin əmri ilə klinikada ağırlaşma və ölüm hallarının araşdırılması, göstərilən tibbi xidmətin səviyyəsinin yüksəldilməsi məqsədilə mütəxəssislərdən ibarət daimi komissiya fəaliyyət göstərir.**

Komissiyanın əsas vəzifəsi arzuolunmaz nəticələr ortaya çıxdıqda, aparılmış müalicənin düzgünlüyünü yoxlamaq, obyektivliyi və şəffaflığı qorumaq, eyni zamanda ölüm faktlarının qeydiyyatı zamanı neqativ halların qarşısını almaqdır.

Komissiyanın növbəti iclasında Neonatal intensiv terapiya şöbəsinin bu ilin mart-oktyabr aylarındakı fəaliyyəti müzakirə edilib. Şöbənin müdiri Sərxan Elbəyiyev göstərilən müddətdə xəstə sayı, ən çox rast gəlinən patologiyalar, ağırlaşmalara və ölümə gətirib çıxaran səbəblər haqqında məlumat verib, xəstəlik tarixçələrini diqqətə çatdırıb.

Qeyd edək ki, komissiyanın sədri Anesteziologiya və reanimatologiya kafedrasının dosenti İsrail Məhərrəmbəyli, üzvləri isə Ümumi cərrahiyyə kafedrasının müdiri, professor Elçin Ağayev, Cərrahiyyə əməliyyat blokunun müdiri Namaz İbrahimov, Neonatal intensiv terapiya şöbəsinin müdiri Sərxan Elbəyiyev, II Mama-ginekologiya şöbəsinin müdiri Turab Canbaxışov, klinikanın hüquqşünası Rəna Musayeva və Kardiologiya şöbəsinin həkim-kardioloqu Sara Bayramzadədir.

**Oktyabrın 27-də ATU-nun Tədris Cərrahiyyə Klinikasında əsasən rezidentlər və gənc həkimlər üçün nəzərdə tutulan uroloji seminar keçirilib. Seminara moderatorluq edən Rezidentura və magistratura şöbəsinin müdir müavini, assistent Namiq Xəlilov gənc həkimlərin elmi və praktiki fəaliyyətinə universitet rəhbərliyinin həmişə xüsusi diqqət göstərdiyini bildirib.**



# Böyrək daşı xəstəliyinin müasir üsullarla müalicəsi müzakirə olunub

O, elmi diskussiyaların əhəmiyyətini vurğulayaraq, Azərbaycan Endouroloji Cəmiyyətinin (AEC) təşəbbüsü ilə "Nefrolitiazın müalicəsində müasir endoskopik müalicə üsulları" mövzusu müzakirəyə çıxarılan seminarın işinə uğurlar arzulayıb.

Seminarda çıxış edən Urologiya kafedrasının müdiri, professor Rauf Nağıyev ilk növbədə Azərbaycan Endouroloji Cəmiyyətini yaratmaq təşəbbüsündən söz açıb və uzun bir yol keçərək bu ideyanı reallaşdırdıqlarını vurğulayıb. Bildirib ki, əsas hədəfimiz bizdən əvvəl fəaliyyət göstərən dərnəklərlə işbirliyi qurmaq, ayda bir-iki dəfə kurslar təşkil etmək və gələcəkdə Azərbaycan Tibb Universitetinin bazasında qonşu ölkələrdən gələn gənc həkimlərin də tədris ala biləcəyi müasir endouroloji treninq mərkəzi yaratmaqdır. Eyni zamanda, AEC idarə heyəti haqqında tədbir iştirakçılarına məlumat verən professor R.Nağıyev, universitetimizin və digər qurumların rezidentlərinin müxtəlif ölkələrin klinikalarına qısamüddətli kurslara göndərilməsinin də nəzərdə tutulduğunu deyib. Həmçinin uroloji dərnəyin xətti ilə keçirilən bugünkü ilk seminarda Azərbaycanda uzun illərdir aktual problemlərdən biri olan böyrək daşı xəstəliyinin müasir üsullarla müalicəsinə dair maraqlı müzakirələrin aparılacağına inandığını söyləyib və rezidentləri diskussiyalarda fəal iştirak etməyə çağırıb.

Seminarın gedişində üç məruzə dinlənilib. Nefrolitiazın müalicəsində Petroqrad intrarenal cərrahiyyənin rolundan danışan Urologiya kafedrasının dosenti Fikrət Əhmədov 2.5 sm-ə qədər olan böyrək daşlarında bu üsuldan istifadə edildiyini, xəstənin qapalı, heç bir kəsik aparılmadan əməliyyat olunduğunu diqqətə çatdırıb. Onun sözlərinə görə, sağalma müddətinin qısa olması, böyrəyə heç bir xəsarətin yetirilməməsi və qanaxma riskinin olmaması bu üsulun əsas üstünlükləridir.

Tibb üzrə fəlsəfə doktoru Elçin Mustafayevin məruzəsində isə böyrək daşı cərrahiyyəsində minimal invaziv cərrahiyyə olan perkutan nefrolitotomiya üsulundan bəhs edilib. Qeyd olunub ki, bu əməliyyat zamanı daşları böyrəkdən daha rahat tapıb çıxarmaq mümkündür.

Böyrəyin yuxarı seqmentində yerləşmiş mürəkkəb lokalizasiyalı daşların perkutan dəliklə xaric olunması zamanı gözlənilən risklərə toxunan dosent Rəşad Məmmədov bu risklərin minimallaşdırılması üçün görülən tədbirlərdən danışıb.

Bundan sonra məruzəçilər tədbir iştirakçılarının suallarını cavablandırıblar. Geniş diskussiya şəraitində keçən seminarda urologiya üzrə ölkəmizin aparıcı mütəxəssisləri olan professorlar Fuad Quliyev, Rəşad Şolan və İlham Əhmədov da iştirak ediblər.

# Uroloqlarımız beynəlxalq tədbirlərdən qayıdıb

**Bu günlərdə İstanbulda Beynəlxalq Uroloji və Türk Uroloji cəmiyyətlərinin birgə təşkilatçılığı ilə Türkiyə Cümhuriyyətinin 100 illiyə həsr olunmuş elmi-praktik konqres keçirilib. Toplantıda 54 ölkədən 3 minə yaxın nümayəndə iştirak edib.**



Bu mötəbər toplantıda ölkəmizi təmsil edən uroloqlar arasında Azərbaycan Tibb Universitetinin əməkdaşları da olub. Urologiya kafedrasının müdiri, professor Rauf Nağıyev, kafedranın əməkdaşları - professor İlham Əhmədov, dosent Fikrət Əhmədov konqresdə iştirak ediblər. Professorlar R. Nağıyev və İ.Əhmədov, həmçinin sessiyada hə msədr kimi rol alıblar.

Yeri gəlmişkən, professor R.Nağıyev bu yaxınlarda Birləşmiş Ərəb Əmirliklərinin Dubay şəhərində keçirilmiş Asiya Uroloqları Assosiasiyasının XX konqresində də iştirak edib. Tədbirdə "Laparoskopik ureterolitotemiya" mövzusunda çıxış edən professor, ATU-nun Tədris Cərrahiyyə Klinikasında 2011-ci ildən bu yana üzərində müvafiq əməliyyat həyata keçirilmiş xəstələrin təhlili və əldə olunan təcrübə barədə məlumat verib.

Məruzə tədbir iştirakçıları tərəfindən maraqla qarşılanıb.

# Tanınmış alim oftalmologiya mövzusunda mühazirə oxuyub



**Oktyabrın 16-da Azərbaycan Tibb Universitetinin Oftalmologiya kafedrası və Rezidentura və magistratura şöbəsinin birgə təşkilatçılığı ilə Türkiyənin Yeditepe və Sağlamlıq Elmləri universitetlərinin professoru, məşhur rekonstruktiv cərrah İbrahim Yıldırım ATU-nun Tədris Cərrahiyyə Klinikasında mühazirə oxuyub.**

Oftalmologiya kafedrası əməkdaşlarının, tələbə və rezidentlərin iştirak etdiyi mühazirənin mövzusu "Baş, üz-çənə, burun, göz orbitanın patologiyaları, anadangəlmə qüsurlar, müxtəlif mənşəli törəmələr və travmalar zamanı cərrahi müalicənin əsasları və individual yanaşma" olub.

Məruzəçi diqqətə çatdırıb ki, göz qapaqlarının anadangəlmə patologiyalarında aparılan plastik əməliyyatlar, ətraf toxumalardan transplantasiya prinsipləri, daha uzaq toxumalardan köçürmələr, orbitanın rekonstruksiyası zamanı göz almasının olmadığı hallarda təklif olunan müxtəlif mərhələli cərrahi əməliyyatlar, göz qapaqları və göz ətrafında müxtəlif mənşəli bəd və xoşxassəli törəmələrdə onların cərrahi müalicəsi və yaranan toxuma yetməzliyinin bərpasının əsasları onun şəxsi praktikası ilə işıqlandırılıb.

Məruzədə göz qapaqlarından başqa, üzün alın və burun-dodaq hissəsində rast gəlinən anadangəlmə anomaliyalar, müxtəlif mənşəli şişlər, o cümlədən termik travmalar zamanı mərhələli cərrahi müalicənin prinsiplərinə də toxunulub. Ən maraqlısı isə uzaq nəticələrin (30 ilə qədər) nümayiş etdirilməsi olub.

Söhbət əsnasında professor İbrahim bəy özünün də Azərbaycan əsilli olması və professor Paşa Musayev (Qəlbinur), eləcə də assistent Namiq Xəlilovla uzun illərə dayanan yaxın dostluq əlaqələrindən və əməkdaşlığından söz açıb.

Qonağın çıxışından sonra mövzu ətrafında geniş müzakirələr olub. Moskvada çalışan tibb elmləri doktoru, tanınmış alim, oftalmoloq Sevinc Əkbərova mövzuyla bağlı fikirlərini bölüşərək, göz ətrafında yaranan müxtəlif mənşəli patologiyalar və onların cərrahi üsulla müalicə yollarından danışıb.

Oftalmologiya kafedrasının müdiri, professor Paşa Musayev mövzunun aktuallığını vurğulayaraq, professor İbrahim Yıldırıma və tədbir iştirakçılarına təşəkkür edib.

Diskussiya şəraitində keçən toplantının sonunda İ.Yıldırım çoxsaylı sualları cavablandırıb.

**Oktyabrın 26-da Rezidentura və magistratura şöbəsi ATU-nun Tədris Stomatoloji Klinikası ilə birgə rezidentlər və yuxarı kurs tələbələri üçün xüsusi tibbi və praktik əhəmiyyətli problemlərə həsr olunmuş seminar təşkil edib.**



Tədbirə moderatorluq edən şöbə müdirinin müavini, assistent Namiq Xəlilov seminarın iştirakçıları salamlayaraq, bu mühazirələri rezidentlərin həyatında bir yenilik

# Gələcək stomatoloqlar üçün seminar keçirilib

adlandırıb və gələcəkdə planlaşdırılan bu kimi tədbirlərin rəhbərlik tərəfindən də dəstəkləndiyini qeyd edib: "Bu gün seminarın gündəliyinə Terapevtik stomatologiya kafedrasının professoru Ramiz Əhmədbəylinin "Funksional və estetik reabilitasiyanın optimal interdistiplinar planlanması" adlı məruzəsi daxil edilib. Bildiyiniz kimi, Ramiz müəllim Estetik Stomatologiya Assosiasiyasının ölkəmizdə yaradıcısı və rəhbəridir. O bu sahədə bir çox elmi məqalənin müəllifidir. Düşünürəm ki, onun müzakirəyə çıxardığı mövzu maraqla qarşılanacaq".

Professor R.Əhmədbəyli öz məruzəsində stomatologiyanın aktual problemlərindən bir neçəsinin bir arada olması, klinik situasiyalarda düzgün planlama, müasir müalicə metodlarının komanda halında tətbiqi yolları və onların ardıcıllığı, rəqəmsal texnologiyalar və innovativ metodlardan səmərəli istifadədən geniş bəhs edib.

Nədən bu mövzunu seçməsinə də aydınlıq gətirən professor bildirib ki, ilk dəfə bu haqda bir neçə il öncə xarici universitetlərin birində eşidib: "Bu mövzunun mənası, fəlsəfəsi nədir", "Bizim gündəlik çalışmamız üçün faydası nə olacaq" kimi suallara hər zaman cavab axtarmışdım və o gündən bu günə qədər bu fəlsəfəni özümə örnək götürmüşəm. Bu fəlsəfəni anlamaq bizə imkan verir ki, səhvlərimizi minimuma endirək. Xəstə bizə müraciət edəndə, planlama əsasında birinci gündən sonadək estetik və funksional reabilitasiyanı bitirməliyik. Professional komanda şəklində çalışmalı, ardıcıl diskussiyalar aparmalı və rastlaşdığımız fəsadları fərqli texnologiyalar vasitəsilə aradan qaldırmağa nail olmalıyıq".

Tədbirdə iştirak edən Stomatoloji Klinikanın direktoru, t.ü.f.d. Mahir Səfərov, Terapevtik stomatologiya kafedrasının müdiri, dosent Vaqif Həsənov və kafedrada rezidentlər üzrə cavabdeh şəxs, dosent Səlimə Məmmədova artıq bir ənənəyə çevrilən bu seminarların rezident və gənc həkimlər üçün böyük əhəmiyyət daşıdığını vurğulayıb və onların baş tutmasında verdikləri dəstəyə görə universitetin və klinikaların rəhbərliklərinə təşəkkür ediblər.

Diskussiya şəraitində keçən tədbirdə sualları cavablandıran professor R.Əhmədbəyli məruzəsinin maraqla qarşılanmasından məmnunluğunu çatdırıb və qeyd edib ki, tələbələr təcrübəli müəllimlərin özündə müasirliyi əks etdirən məruzələrini dinləməklə çox şey öyrənə bilərlər.

# "Mən bunu necə edirəm?" layihəsinin tədbirləri davam edir

**ATU-nun Tədris Cərrahiyyə Klinikasında I Cərrahi xəstəliklər kafedrasının təşkilatçılığı, Rezidentura və magistratura şöbəsinin dəstəyi ilə rezidentlər və tələbələr üçün "Mən bunu necə edirəm?" layihəsi çərçivəsində növbəti mühazirə baş tutub.**

Bu dəfə professor Eldar Əliyev "Mən anal fistulları necə əməliyyat edirəm?" mövzusunda mühazirə oxuyub. Tədbirə online qatılan bu layihənin rəhbəri, I Cərrahi xəstəliklər kafedrasının müdiri, AMEA-nın müxbir üzvü, professor Nuru Bayramov bildirib ki, layihəyə iki ildir başlanılıb və indiyədək 20-ə yaxın mövzu əhatə olunub: "Gördük ki, rezidentlər konsiliumda fəal iştirak edir, fikirlər söyləyir, özləri seminar təşkil edir, texniki bacarıq kursları keçirlər. Amma bunların hamısı sonda bir təcrübəli həkimin necə etməsinə gəlib çıxır. Kafedramızın təşəbbüsü və təşkilatçılığı ilə bu layihəni başladıq. Burada məqsəd ondan ibarətdir ki, hər bir sahə üzrə təcrübəli müəllim, mütəxəssis bu əməliyyatı necə yerinə yetirdiyini, xəstəyə diaqnozu necə qoyduğunu və müalicəni necə həyata keçirdiyini nümayiş etdirsin. Bildiyiniz kimi, layihəyə ölkəmizdən və ya xaricdən öz sahəsini dərindən bilən təcrübəli mütəxəssislər dəvət olunur. Onlar ya canlı, ya da zoom vasitəsi ilə öz təcrübələrini rezidentlərimizə izah edirlər. Bu isə rezidentlər üçün çox faydalıdır".

Sonra mövzu barədə barədə məlumat verən professor E.Əliyev bildirib ki, anal fistullar diaqnostikasının çətinliyi, vahid müalicə üsulunun olmamasına görə fərqlənir: "Əksər hallarda fistul əmələ gəlməsinin səbəbi kəskin paraproktitin mürəkkəb gedişatıdır. Kəskinləşmə dövründə irinlə qarışmış seliyin sərbəst buraxılması ilə fistul diaqnozu qoyula bilər. Bu vəziyyətdə ağrı orta dərəcədədir və axıntı çox deyil. İnstrumental müayinə zamanı təsirlənmiş toxuma sahəsində ödem və hiperemiyanın olması ilə fistul müəyyən edilir. Kəskinləşmə dövrləri xəstə yaxşılaşmağa başlayanda remissiya vəziyyəti ilə müşayiət oluna bilər.



Pararektal fistul düz bağırsağı rektal nahiyədə ətraf toxumalarla birləşdirən fistul əmələ gəlməsi ilə xarakterizə olunan patoloji vəziyyətdir. Çox vaxt düz bağırsağın və ya pararektal bezlərin kəskin və ya xroniki iltihabı nəticəsində baş verir. Pararektal fistulun simptomları arasında ağrı, narahatlıq, anusdan irin, ya da qanın axması, həmçinin hərarət və ümumi zəiflik ola bilər. Diaqnoz üçün klinik müayinə, anorektoskopiya, rektoziqmoidoskopiya, eləcə də instrumental və laboratoriya tədqiqat üsulları istifadə olunur".

Sözünə davam edən professor vurğulayıb ki, əgər xəstəlik uzun müddət müalicə olunmadan davam edərsə, o zaman çapıqlaşma nəticəsində anal kanalın daralması inkişaf edə bilər: "Bundan əlavə, zaman keçdikcə malign neoplazmaların inkişafı mümkündür. Ona görə də yuxarıda göstərilən simptomlar aşkar edilərsə, mümkün qədər tez proktoloqa müraciət etmək lazımdır.

Anal fistullarda öz-özünə sağalma olmur. Belə bir fikir xəstənin ancaq vaxtını alır və vəziyyətin daha da pisləşməsinə gətirib çıxarır. Bu da öz növbəsində müalicəni çətinləşdirir və gecikdirilərsə, həmin bölgədə dəri xərçənginin yaranma riski artır. Fistul vaxtında müalicə edilməsə, cərrahi üsul qaçılmazdır".

Bundan sonra tədbirə moderatorluq edən I Cərrahi xəstəliklər kafedrasının rezidentlər üzrə rəhbəri, t.e.d. Elman Əzimov və Rezidentura və magistratura şöbəsinin müdir müavini, assistent Namiq Xəlilov məruzə ətrafında çıxış edərək mövzunun aktuallığından danışıblar. Onlar "Mən bunu necə edirəm?" layihəsinin rezidentlər üçün əhəmiyyətini vurğulayaraq, layihə rəhbərinə, həmçinin dəstəyə görə ATU-nun və Klinikanın rəhbərliyinə minnətdarlıqlarını bildiriblər.

Tədbirdə Tədris Cərrahiyyə Klinikasının direktoru Cavid Paşayev də iştirak edib.

# Tədris Terapevtik Klinikada rezidentlər üçün seminar keçirilib

**Oktyabrın 19-da ATU-nun Rezidentura və magistratura şöbəsi Tədris Terapevtik Klinika ilə birlikdə rezidentlər üçün növbəti seminar keçirib.**



Seminarı açan Rezidentura və magistratura şöbəsinin müdir müavini Namiq Xəlilov qeyd edib ki, II Daxili xəstəliklər kafedrasının dosenti Səbinə Məşədiyevanın məruzəsi iştirakçılar üçün maraqlı olacaq. Çünki onun "Hipoparatireozun müasir müalicəsi" adı altında təqdim etdiyi mövzu da əvvəlkilər kimi çox aktualdır və bu xəstəlikdən əziyyət çəkənlərin sayında son zamanlar artım müşahidə olunur.

S.Məşədiyeva diqqətə çatdırıb ki, hipoparatireoz qalxanvari ətraf vəzilərin sekresiya etdiyi parathormonun azalması və ya yaxud heç olmaması ilə müşahidə olunan vəziyyətdir: "Parathormon orqanizmdə kalsiumun və fosforun mübadiləsinə cavabdeh hormondur. Onun çatmazlığı ciddi ağırlaşmaya – hipokalsiemiyaya gətirib çıxara bilər.

Kalsium ürək və skelet əzələlərinin aktiv işi, sinir oyanıqlığı, maddələr mübadiləsinin bütün növləri üçün vacib vasitədir. Sümük toxumasında mineralizasiyanı təmin edir və qanın laxtalanması faktorlarını aktivləşdirir".

Sözünə davam edən məruzəçi bildirib ki, son illər paratireoid vəzlərin autoimmun zədələnmələri də artıb və endokrinoloqlar xəstəliyin bu formasına tez-tez rast gəlirlər: "Hipoparatireoz zamanı skelet əzələlərin sinir-əzələ oyanıqlığı artır, paresteziyalar, çox ağrılı qıcolmalar, əzələ dartılmaları əmələ gəlir, əsasən bu qıcolmalar aşağı və yuxarı ətrafların əzələlərində və üz əzələlərində olur. Daxili orqanların əzələləri də bu prosesə qoşula, bronxospazm, larinqospazm əmələ gələ bilər. Ağır hallarda tənəffüs, udma pozulmaları olur. Mədə-bağırsaq sisteminin əzələlərində proses gedəndə ishal və ya qəbizlik yaranır. Tez-tez vegetativ pozulmalar (istigəlmə, titrəmə, ürəkdə ağrılar, arterial hipotoniya) olur.

Xəstəlik uzun müddət müalicə olunmayanda trofik pozulmalar əmələ gəlir, diş emali pozulur, dəri quruyur, dırnaqlar kövrəkləşir, katarakta əmələ gəlir. Psixi pozuntular, ağır nevrozlar, yaddaşın zəifləməsi, yuxusuzluq yaranır və depressiyaya gətirib çıxarır".

Seminarın sonunda Tədris Terapevtik Klinikanın baş həkimi Fəridə Hacıyeva vurğulayıb ki, hər dəfə bir həkimin aktual mövzuda rezidentlər qarşısında çıxış etməsi maraqla qarşılanır və onların gələcək fəaliyyətində böyük əhəmiyyətə malikdir.

# Növbəti seminar rezidentlər tərəfindən maraqla qarşılanıb

**ATU-nun Rezidentura və magistratura şöbəsi Azərbaycan Reanimatoloqlar və Anestezioloqlar Cəmiyyəti ilə birgə Tədris Terapevtik Klinikada rezidentlər üçün növbəti seminar keçirib.**

**Şöbənin müdir müavini, assistent Namiq Xəlilov bildirib ki, artıq bir ənənəyə çevrilən bu seminarlar rezidentlərin və gənc həkimlərin həyatında çox böyük əhəmiyyətə malikdir.**

Sonra ATU-nun Anesteziologiya və reanimatologiya kafedrasının assistenti Pərisa Xoşbonyaninin "Nutritiv dəstəyin intensiv terapiyada rolu" mövzusunda məruzəsi dinlənilib. O, çıxışında bildirib ki, kritik vəziyyətlərin müalicəsinin müasir yanaşmasında nutritiv dəstəyin rolu əvəzsizdir: "Kritik xəstələrdə hiperkatabolizm-hipermetabolizm sindromunun inkişafı və mədə-bağırsaq traktının ciddi funksional pozulmaları ağır metabolik pozğunluqların və mütərəqqi protein-enerji çatışmazlığının inki-



şafına səbəb olur.

Nutritiv çatışmazlıq və metabolik pozğunluqların qeyri-adekvat korreksiyası terapevtik tədbirlərin effektivliyini əhəmiyyətli dərəcədə azaldır, septik və infeksion ağırlaşmaların inkişaf riskini artırır, xəstələrin xəstəxanada qalma müddətini uzadır, ölüm nisbətini artırır.

Kritik vəziyyətin formalaşmasının əsas patogenetik zənciri - sistem iltihab reaksiyasıdır. Poliorqan çatışmazlıq sistem iltihab reaksiyasının ən ağır formasıdır və reanimasiya və intensiv terapiya şöbəsinin xəstələrində letallığın əsas səbəbi sayılır".

Nutritiv terapiyanın əsas məqsədlərindən bəhs edən məruzəçi əlavə edib ki, hipermetabolizm-hiperkatabolizm sindromunun korreksiyası bədənin energetik və plastik tələbatının ödənilməsi, immun funksiyasının modulyasiyası, toxumaların, skelet və tənəffüs əzələlərin funksiyalarına dəstək, bağırsaq çatışmazlığı sindromunun müalicəsi, poliorqan çatışmazlığın profilaktikası və müalicəsidir".

İşgüzar şəraitdi keçən seminarın sonunda P.Xoşbonyani rezidentlərin çoxsaylı suallarını cavablandırıb.

# Tanınmış pulmonoloq ABŞ-da beynəlxalq konqresdə çıxış edib

**ATU-nun professoru, pulmonoloq Əlizamin Sadıqov dünya miqyaslı ABŞ Döş Qəfəsi Həkimləri təşkilatının (The American College of Chest Physicians - CHEST) beynəlxalq konqresində çıxış edib. Oktyabrın 8-11-də ABŞ-ın Havay ştatının Honolulu şəhərində keçirilən illik toplantının işinə 20-dən çox ölkədən mütəxəssislər qatılıb.**

Tədbirdə pulmonologiya ilə yanaşı, tibbin digər sahələrinə aid yeniliklər, elmi nailiyyətlər müzakirə edilib. İştirakçılar təcrübə mübadiləsi aparıb, fərqli qurumlar və tibb-elmi müəssisələr arasında yeni əməkdaşlıqlar qurulub.

ABŞ Döş Qəfəsi Həkimləri təşkilatının eksperti, professor Ə.Sadıqov konqresdə çıxış edərək bəzi ağciyər xəstəliklərinin müalicə metodları, döş qəfəsi infeksiyaları, intensiv terapiya üsulları və digər məsələlərlə bağlı fikirlərini bölüşüb. Azərbaycanlı həkimin məruzələri auditoriya tərəfindən maraqla qarşılanıb.

Qeyd edək ki, tədbirdə dinlənilən məruzələr nüfuzlu "CHEST" jurnalında çap olunub. CHEST - innovativ pulmonologiya və döş qəfəsi xəstəliklərinin müalicəsində aparıcı rol oynayan peşəkarları birləşdirir. Bu qurum təhsil, təbliğat, tədqiqat və xeyriyyəçilik vasitəsilə ağciyər xəstələrinin sağlamlığı uğrunda fəaliyyət göstərir.




**ATU-nun Yoluxucu xəstəliklər kafedrasının əməkdaşları Vüqar Cavadzadə, Gülnarə İbrahimova və Sulduz Əhmədova oktyabrın 19-20-də Özbəkistanın Buxara şəhərində yerləşən İbn Sina Tibb Universitetinin təşkil etdiyi "İnfeksion xəstəliklər və antimikrob vasitələr" adlı beynəlxalq konfransda iştirak ediblər.**

# Əməkdaşlarımız Özbəkistandan qayıdıb

Konfransın açılışında dosent Gülnarə İbrahimova Azərbaycan nümayəndə heyəti adından çıxış edib. Dosent Vüqar Cavadzadə isə panel iclasında "Virus hepatitli xəstələrdə bağırsaq parazitozlarının rastgəlmə tezliyi və müalicəsi" mövzusunda məruzə oxuyub. Onun aktual mövzuda çıxışı iştirakçıların marağına səbəb olub.

V.Cavadzadə məruzəsində Ümumdünya Səhiyyə Təşkilatının son məlumatlarına əsaslanaraq qeyd edib ki, hər il dünyada 1,4 milyon insan A hepatit, 1,5 milyon insan B hepatit, 1 milyondan artıq insan isə C hepatit virusuna yoluxur. Əməkdaşımız, həmçinin B, C və B+D virus hepatitli xəstələrdə bağırsaq parazitozlarına (askarida, enterobius, trixosefal, trixinella, blantidia və lamblia) rast gəlindiyini, onların virus hepatitlərinin gedişini çətinləşdirdiyini və ağırlaşma riskini artırdığını bildirib.

İki günlük konfransın işində Türkiyə, ABŞ, Rusiya, İtaliya, Birləşmiş Ərəb Əmirlikləri, Qazaxıstan, Tacikistan və digər ölkələrin aparıcı mütəxəssisləri iştirak ediblər. Onlar müasir dünyada qlobal problemlərdən birinə çevrilmiş infeksion xəstəlikləri müzakirə edib, geniş fikir mübadiləsi aparıblar.

Şəhid məzunlarımız

# Vətənin həkim oğlu

## Ona həvalə olunan bütün işlərin öhdəsindən layiqincə gələn Ceyhun Əhmədxanov helikopter qəzasında şəhid olub

**Əgər sağ olsaydı, oktyabrın 18-də 35 yaşını qeyd edəcəkdi. Amma təəssüf ki, Dövlət Sərhəd Xidmətinin hərbi helikopterinin Xızı rayonu ərazisində yerləşən "Qaraheybət" aviasiya poliqonunda təlim uçuşları yerinə yetirərkən qəzaya uğraması nəticəsində onun da ömrü yarımçıq qaldı. O, Azərbaycan Tibb Universitetinin şəhid məzunlarından biri - tibb xidməti kapitanı Ceyhun Əhmədxanovdur.**

### Müharibə zamanı çoxsaylı yaralıların həyatını xilas edib



C.Əhmədxanov 1988-ci il oktyabrın 18-də Bakıda anadan olub. Orta təhsilini Bakı şəhər 288 saylı orta məktəbdə alıb. 2006-cı ildə Azərbaycan Tibb Universitetinin Müalicə-profilaktika fakültəsinə daxil olub. 2012-ci ildə ATU-nu müvəffəqiyyətlə başa vuran Ceyhun bununla kifayətlənməyib, ikinci ali təhsil alıb. Belə ki, Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasını da bitirib.

O, Azərbaycan Respublikasının Silahlı Qüvvələrində, Fövqəladə Hallar Nazirliyində, Dövlət Sərhəd Xidmətinin Sərhəd Qoşunlarında hərbi həkim kimi fəaliyyət göstərib. 2020-ci il sentyabrın 27-də başlanan və torpaqlarımızın işğaldan azad edilməsi ilə nəticələnən Vətən müharibəsində iştirak edib. Yaralılara tibbi yardım göstərərək, onların həyatda qalması üçün əlindən gələni əsirgəməyib.

30 noyabr 2021-ci ildə baş verən helikopter qəzasında 14 nəfər həlak olub, 2 nəfər yaralanıb. Ceyhun Əhmədxanov hadisə zamanı şəhidlik zirvəsinə ucalıb, II Şəhidlər Xiyabanında dəfn olunub. Ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edilib.

Ceyhunla bağlı xatirələrini qələmə almaq üçün onun ailə üzvləri, tələbə və iş yoldaşları, dostları ilə əlaqə saxladıq.

### İndi o çiçəklərin elə həsrətindəyəm ki...

**Anası Rəqiybə Seyidova** oğlu barəsində kövrələrək danışır:

- Ceyhun gözəl bir payız günü anadan olmuşdu. Biz onu böyük sevgi və məhəbbətlə böyüdürdük. O güləndə gülər, ağlayanda ağlayardıq. Körpə olarkən birlikdə cizgi filmlərini, böyüdükdən sonra isə Jan-Klod Van Damm, Brüs Linin çəkildiyi döyüş səhnələrini izləyərdik. Filmlər bitəndən sonra müzakirə edər, fikirlərimizi bölüşərdik.

Uşaqlıqdan idmana həvəsi var idi. Müxtəlif yarışlara qatılmış, uğurlar da əldə etmişdi. Buna görə Fəxri fərmanlar, diplomlarla təltif olunub. Eyni zamanda, qarmonda ifa etməyi çox sevirdi.

Ceyhun sıradan bir uşaq deyildi. Çox ağıllı, məsuliyyətli, səliqəli idi. Məktəbdə əla qiymətlərlə oxuyur, intizamı ilə başqalarından seçilirdi. Heç vaxt bizim ona olan məhəbbətimizdən, qayğımızdan sui-istifadə etməzdi. Müsbət nəticələri ilə əvəzini verməyə çalışar, uğurları ilə öyünməz, gizli qalmasını istəyərdi. Müəllimləri onu çox sevirdi. Ceyhun da öz növbəsində onlara qarşı hörmət və diqqətini əsirgəməzdi.

Uşaqlıqdan at sürməyi, nişan almağı çox xoşlayırdı. Evdə hədəf düzəldib müxtəlif oyuncaq silahlardan atəş açardı. Avtomobillərlə maraqlanır, "019" rəqəmini özünə uğurlu rəqəm hesab edirdi. Ceyhunun bir neçə şəxsi avtomobili olub. Hamısının da seriya nömrəsi "019"la qurtarırdı. Onu tanıyanlar bunu bilirdi və ona ərazidə "Ceyhun"dan çox, "019" deyərdilər. Ceyhun doğru insanlarla dostluq edər, qalmaqallı insanlardan uzaq durardı. Böyüklə böyük, kiçiklə kiçik olardı.

O, ölkəmizin nüfuzlu iki universitetinin ən yaxşı fakültələrində təhsil alıb. 3 dövlət orqanında həkim kimi Vətənə xidmət edib. Müharibə başlayan gündən cəbhədə olub, çoxsaylı yaralıların həyata qaytarılmasında əlindən gələni əsirgəməyib.

Heç yadımdan çıxmaz. Müharibə vaxtı mən adətən evdə tək olurdum. Darıxmayım, könlüm xoş olsun deyə, boş patronlara güldan kimi çiçəklər qoyar, şəklini çəkib mənə göndərərdi. İndi o çiçəklərin elə həsrətindəyəm ki...

Hadisədən öncə sağollaşdığı sonuncu adam da mən olmuşam.

### "Həyatda ən çox güvəndiyim dostum idi"

**Atası Xanlar Əhmədxanov:**



- "Oğul" deyəndə sinəsi qabaran ata oldum. Mərd, cəsur, sağlam, ailəmə həmişə dayaq olan qayğıkeş, əziz balamın durduğu yer həmişə yüksəkliklər olub. Həyatda ən çox güvəndiyim, sirrimi, sözümü bölüşdüyüm dostum idi Ceyhun. Azərbaycan kişisinə məxsus bütün keyfiyyətlər onda cəmlənmişdi. Allahın yaratdığı möcüzə idi, mənim oğlum. Hələ sağkən qürur duyurdum onunla.

Şəhidlik bir zirvədir. Bu zirvəyə çatmaq hər kəsə nəsib olmur. Mənim oğlum bir qəhrəmandır.

### Nakam sevginin alovlu misraları...

Evdə kimsə bilməsə də, Ceyhun sevib-sevilirmiş. O, şəhid olandan sonra məsələnin üstü açılır. Ceyhunu qəlbən, səmimi duyğularla sevən və haqqında şeir yazan bir qızın alovlu misraları ürək parçalayır:

*...Bir sağalmaz yarasan, gecələri sızlayan,*
*Gəl yuxuma məlhəm ol, unutdur acıları.*
*Bir az ürək-dirək ver, de ki, keçər zamanla,*
*Yoxsa çıxar sonuma, bu ürək sancıları.*

*Sığal çəkib telimə, həsrətimə doyub get,*
*Göz yaşıma hakim ol, selində boğularsan.*
*Dodağının izini yanağımda qoyub get,*
*Bir də gəlsən dünyaya, mənimçün doğularsan.*

**Ürək sözlərini kədərli notlarla belə davam etdirir:**



*Cənnət mələyim!*

*Səni məndən soruşsalar, necə anım səni? Mən sənin haqqında hansı sözü, hansı cümlələri deyim onlara? Səninlə yaşadıqlarımız və ya yaşaya bilmədiklərimizi görməyənlər indi bizdən, sənin necə sevilməyindən danışırlar. İstədiyin oldu, nur gözlüm. Səni necə sevdiyimi, necə sevildiyini el-aləmin bilməyini istəyirdin. İndi bütün aləm bilir bunu. Son nəfəsimədək səni qəlbimdə yaşadacağam. Sən mənim sonsuzluğumsan, sənin cənnətini qazanmaq üçün hər şey edəcəyəm.*

*Sənə qovuşmaq arzusuyla sənin S...*

### "Kaş ölüm xəbəri növbəti zarafatlarından biri olaydı"

**Tələbə yoldaşı Rəhnumə Cəfərova:**

- Düzdür, həyat qısadır, itirə-itirə gedirik. Amma elə insanlar var ki, onların yoxluğunu qəbul etmək çətin olur. Mənim üçün Ceyhun onlardan biridir.

O, yaddaşımda həmişə zarafatcıl, gülərüz bir insan kimi qalacaq. Müharibə zamanı səhifəsində şəkil yerləşdirib yazmışdı ki, şəhid olsam, bu şəkli maşınlarınıza vurarsınız. Onun ölüm xəbərini eşidəndə zarafat kimi qəbul etdim, inanmadım. Tez telefonuna zəng vurdum, qapalı idi. Onda başa düşdüm ki, zarafat deyil...

Evdəkilər onun ölüm xəbərini eşidiblərmiş. Ceyhunu çox istədiyimdən bu acı xəbəri mənə demək istəməyiblər. Xəbəri internetdən oxudum. Kaş o gün oxuduğum xəbər növbəti zarafatlarından biri olaydı...

Bu gün Ceyhun aramızda olmasa da, ürəyimizdədir. Mənim əziz qrup yoldaşım və dostum hər birimizin qəlbində əbədi yaşayacaq.

### "Ceyhunun yoxluğuna inana bilmirəm"

**Dostu Rəşad Məhərrəmov:**

- 44 günlük Vətən müharibəsindən geri qayıdarkən mənimlə görüşmək üçün Bərdəyə, iş yerimə gəlmişdi. Söhbətləşdik, təəssüratlarımızı bölüşdük, gələcək xidməti haqda danışdıq, şəkil çəkdirdik. Və nəhayət, mənə yaxın vaxtlarda ailə quracağına dair söz verdi. Sonra bir yerdə nahar etdik, onu Bakıya, xidmət etdiyi hərbi hissəyə yola saldım.

Tibb xidməti kapitanı Ceyhun Əhmədxanov mənim üçün ən əziz, sədaqətli dost, vətənini, xalqını, ailəsini sevən yaraşıqlı, idmançı cüssəli bir zabit idi. Qəza xəbərini eşidən kimi, telefonuna zəng etdim, bağlı idi. Zabit yoldaşı ilə əlaqə saxladım, əfsus ki, acı xəbəri eşitdim. Onun xəyalı gözümün önündən heç vaxt getmir. Məzarını ziyarət edərkən birgə keçirdiyimiz günləri xatırlayır, Ceyhunun yoxluğuna inana bilmirəm.

### Tələbə yoldaşları onunla fəxr edir

**Bəxtiyar Muxtarov:**

- Tarixin şanlı səhifəsinə adını qızıl hərflərlə yazmış hər bir qəhrəmanın bir düşüncəsi olub: "Hər şey Vətən naminə!" Canını, həyatını, varlığını Vətənimizin azadlığı uğrunda verənlərdən biri də Ceyhun Əhmədxanovdur. Onun ölümü biz tələbə yoldaşlarını dərindən sarsıtdı. O, bizim qəlbimizdə daim yaşayacaq.

**Nicat Şıxəlizadə:**

- Ceyhun həmişə istiqanlılığı ilə ətrafdakılara xoş təəssürat bağışlayırdı. Daim dostlarının köməyinə çatmağa çalışar, onlar üçün əlindən gələni edərdi. Öz şirin zarafatlarından da qalmazdı. Mən fəxr edirəm ki, Ceyhun kimi alicənab bir şəxslə dostluq edib, onunla tələbə yoldaşı olmuşam.



**Akif Alıyev:**

- Ceyhun haqqında nə qədər danışsam, yenə azdır. O, böyük ürəyə malik, dostluğun, yoldaşlığın qədrini bilən bir şəxs idi. Öz hərəkətləri, davranışı, səmimiyyəti ilə biz dostlarının qəlbində dərin iz qoyub. Dostlarımız arasında adı çəkiləndə hamımız onu gözəl bir insan kimi xatırlayırıq. Heç birimiz onun şəhid olmasına inana bilmirik. Elə bilirik ki, həmişəki kimi, gəlib bizimlə şirin söhbətlər edəcək, zarafatlaşacaq. Amma bir şeylə təskinlik tapırıq ki, adını tarixə qızıl hərflərlə yazmış və həmişə qəlbimizdə yaşayacaq bir şəxs gedib aramızdan...



### "Ceyhun sanki bu dünyaya sığmırdı..."

**İş yoldaşı Nəzrin Məmmədova:**



- Ceyhun həkimlə cəmi 6 ay birlikdə işləmişəm. Bu müddət ərzində onun haqqında məndə xoş təəssüratlar yarandı. Həmişə istəyirdi ki, gördüyü işlərdən gül ətri gəlsin.

Yaxşı çay həvəskarı idi. Bir gün siyirməsini açdı, oradan qurudulmuş müxtəlif otlar çıxardı. Qızılgül, çobanyastığı, kəklikotu və s. var idi. Çayı elə gözəl tərif edirdi ki, adam elə içmək istəyirdi.

Hər şeyə diqqətcil, təmizkar, olduqca şən idi. Güləndə ürəkdən gülərdi. Hərəkətləri, danışığı, davranışları – hamısı təbii idi. Onda heç vaxt sünilik hiss etmədim. Boy-buxunlu, yaraşıqlı insan idi. Oturduğu stula sığmırdı. Mənə elə gəlirdi ki, Ceyhun sanki bu dünyaya sığmır.

... Hamımız bir gün bu dünyanı tərk edəcəyik. Amma hesab edirəm ki, onun kimi bir insan dünyadan adi şəkildə köçə bilməzdi. Ona adi ölüm yaraşmazdı. Şəhidlik zirvəsinə ucalmaq yaraşırdı ona, elə şəhid də oldu.

Nə yaxşı ki, Ceyhun həkim kimi gözəl bir insanı bu həyatda tanımışam. Yaxşı insan kimi həmişəlik yaddaşıma həkk olub.

**Qabil ZİMİSTANOĞLU**

Akademik M.A.Topçubaşov - 128

# Milli sərvətimiz, milli iftixarımız



**"Mustafa bəy Topçubaşovun həyat yolu, yaradıcılığı, onun bizim üçün və gələcək nəsillər üçün qoyduğu irs milli sərvətimiz və milli iftixarımızdır".**

**Heydər Əliyev**

XX əsrin əvvəllərində Azərbaycan tibb elmi və tibb təhsili sistemlərinin, Azərbaycan səhiyyəsinin ilk yaradıcıları və qurucularından, ölkəmizdə dövlət müstəqilliyinin bərqərar olmasının ilk ziyalı iştirakçıları və şahidlərindən olan dünya şöhrətli professional cərrah, akademik Mustafa bəy Ağabəy oğlu Topçubaşovun doğum günü 1895-ci il avqustun 5-nə təsadüf edir.

SSRİ Tibb Elmləri Akademiyasının akademik A.V.Vişnevski adına mükafatı laureatı, Sosialist Əməyi Qəhrəmanı, SSRİ Tibb Elmləri Akademiyası və Azərbaycan SSR Elmlər Akademiyasının həqiqi, Bolqarıstan Elmlər Akademiyasının müxbir üzvü, Əməkdar elm xadimi, tibb elmləri doktoru M.Topçubaşovun anadan olmasının 128 illiyi bu il də müxtəlif səviyyələrdə geniş qeyd edilib. Möhtəşəm "Heydər Əliyev İli"ndə həm də Azərbaycan Tibb Universiteti nəzdində fəaliyyət göstərən və akademik Topçubaşova həsr olunan "Xatirə muzeyi"nin təşkilinin 28-ci ildönümüdür. Bu muzeyin bəzi məziyyətlərini, onu yaradan və yaşadanların fəaliyyətlərinin bəzi məqamlarını oxucuların diqqətinə çatdırmağı özümüzə borc hesab etdik.

Muzeyin yaradılması ideyası 1995-ci ildə Ümummilli Lider Heydər Əliyevin Sərəncamına əsasən, akademik M.Topçubaşovun anadan olmasının 100 illik yubileyinin keçirilməsi ərəfəsində meydana çıxmış, onun təşkili dövlət başçısı tərəfindən təqdirəlayiq hesab edilmiş, Səhiyyə Nazirliyi və ATU-nun rəhbərliyi tərəfindən böyük həvəslə icra olunmuşdur.

100 illik yubileydə möhtəşəm nitq söyləyən Ulu Öndər Heydər Əliyev görkəmli alimin Azərbaycan tibb elmini, Azərbaycan səhiyyəsini beynəlxalq aləmdə yüksək səviyyədə təmsil etməsini fəxarət hissləri̇lə şərh etmiş, ona olan rəğbətini, ehtiram və məhəbbətini diqqətə çatdırmış, onun və digər görkəmli Azərbaycan ziyalılarının "Sosialist Əməyi Qəhrəmanı" adına, eləcə də digər yüksək təltiflərə layiq görülmələrindəki qürurverici rolundan danışmışdır.

Yubiley təntənələrinin davamı kimi 27 dekabr 1995-ci ildə ATU-nun III Cərrahi xəstəliklər kafedrasında (Emin Əfəndiyev adına 2 nömrəli şəhər Xəstəxanası bazasında) – görkəmli alimin çalışdığı iş otağında onun "Xatirə muzeyi"nin açılışı olmuşdur.

Alimin qızı – mama-ginekoloq, tibb elmləri namizədi, dosent Zemfira xanım Topçubaşova ailələri adından Ümummilli Lider Heydər Əliyevə, həmçinin "Xatirə muzeyi"nin təşkilatçılarına, qədirbilən Azərbaycan xalqına dərin minnətdarlığını bildirmişdir. Rektorun əmrinə əsasən "Xatirə muzeyi"nə rəhbərlik kafedranın əməkdaşı, akademikin sadiq və etibarlı tələbələrindən olan tibb elmləri namizədi, dosent Şəfa Əliyevə həvalə olunmuşdur.

O vaxtdan bu günə qədər Şəfa müəllim yüksək bacarıq və entuziazm nümunəsi göstərərək, "Xatirə muzeyi"nin fəaliyyətinə öz töhfələrini vermiş, onun təkcə Azərbaycanda deyil, beynəlxalq aləmdə də tanınmasına, aidiyyəti üzrə ölkəmizdə olan xarici qonaqların muzeylə tanışlığına əlverişli imkanlar yaratmışdır.

Ümumiyyətlə "Xatirə muzeyi"ndə minə qədər unikal eksponat qorunub saxlanılır. Onlardan 550-si ekspozisiyada nümayiş etdirilir. Bu eksponatlar görkəmli alimin keçdiyi şərəfli həyat yolundan söhbət açır. Eksponatlar Mustafa bəyin Qərbi Azərbaycanda – İrəvan kişi gimnaziyasında aldığı ilk təhsil illərindən, daha sonra Kiyev Universitetinin Tibb fakültəsini bitirib Vətənə qayıtmasından, burada böyük həvəslə yaradıcı, quruculuq işlərə başlamasından bəhs edir.

1937-ci ildə dünya anesteziologiya elmi tarixində ilk dəfə olaraq orijinal keyitmə üsulu – inyeksion efir-yağ narkozu – "Analgeziya üsulu"nu kəşf edən alimin bu kəşfə və onun geniş miqyasda təcrübədə tətbiqinə görə SSRİ Tibb Elmləri Akademiyasının akademik A.V.Vişnevski adına mükafatına və xüsusi diplomuna layiq görülməsinin muzeydəki görüntüləri hamıda qürur hissləri oyadır. Onu da qeyd etmək yerinə düşər ki, bu kəşf dünyəvi əhəmiyyət kəsb etdiyinə görə Beynəlxalq Nobel mükafatına təqdim edilmişdi. Lakin təəssüf ki, Azərbaycan xalqının və bütövlükdə türk millətinin mənfur düşmənləri bu prosesin baş tutmasına maneə yaratdılar.

Eksponatlar Mustafa bəyin İkinci Dünya müharibəsi illərindəki fədakar fəaliyyətini də geniş surətdə işıqlandırır. Həmin illərdə Azərbaycan Xalq Səhiyyə Komissarlığı Hərbi Xəstəxanalar İdarəsinin baş cərrahı vəzifəsində çalışan alim cərrahiyyə sahəsində əldə etdiyi inqilabi yeniliklərə görə "Əməkdar elm xadimi" fəxri adına, SSRİ Dövlət (Stalin) mükafatına, "Lenin Ordeni"nə, "Qırmızı Əmək Bayrağı" ordeninə, həmçinin "Qafqazın müdafiəsinə görə" və "Almaniya üzərində qələbə" medallarına layiq görülüb.

Keçmiş SSRİ-nin rəhbəri olmuş İosif Stalinin Azərbaycan aliminin müharibə illərində göstərdiyi rəşadətli xidmətlərinə görə ona ünvanlandığı şəxsi təşəkkür teleqramı da muzeyin diqqəti cəlb edən nadir eksponatlarındandır.

Dünya şöhrətli alimin 62 illik fədakar əmək fəaliyyəti dövründə yüz minə yaxın cərrahlıq əməliyyatı aparmasına, 5 cildlik "Xüsusi cərrahlıq" kitablarının, 8 monoqrafiyanın, 300-ədək elmi və elmi-kütləvi işlərin müəllifi olmasına aid sənədli görüntülər hər kəsi valeh edir. Bu illər ərzində Şəfa müəllimin öz təşəbbüsü ilə sevimli müəlliminin kiril əlifbası ilə qələmə aldığı 5 cildlik orijinal "Xüsusi cərrahlıq" kitabını latın qrafikası ilə yenidən çap etdirərək müasir oxucuların ixtiyarına verib.

Akademik M.A.Topçubaşovun 1952-ci ildə Bolqarıstan Elmlər Akademiyasının müxbir üzvü seçilməsi, III dərəcəli "Kirill və Mefodi" ordeni ilə təltif edilməsi mərasimlərini, Azərbaycan SSR Sülhü Müdafiə Komitəsinin sədri və SSRİ Sülhü Müdafiə Komitəsinin üzvü kimi ona həvalə edilən bütün ictimai işləri şərəflə yerinə yetirməsini, həmçinin Ümumdünya Sülh Şurasının gümüş medalına, Sovet Sülhü Müdafiə Komitəsinin Fəxri fərmanlarına layiq görülməsini əks etdirən görüntülər "Xatirə muzeyi"nin bəzəyinə çevrilən eksponatlardandır.

Ümummilli Lider Heydər Əliyevin 1975-ci ildə akademik M.Topçubaşovun 80 illik yubileyində görkəmli alimə təqdim etdiyi dördüncü "Lenin Ordeni", eləcə də "Oraq və Çəkic" qızıl medalına layiq görülməsi ilə yanaşı, "Sosialist Əməyi Qəhrəmanı" kimi yüksək adla təltif edilməsinə aid sənəd və eksponatlar "Xatirə muzeyi"nin əhəmiyyətini artırır. 1995-ci il oktyabrın 14-də Ümummilli Lider Heydər Əliyevin Sərəncamı ilə görkəmli ictimai xadim və elm xadimi M.A.Topçubaşovun anadan olmasının 100 illik yubileyinin əsrarəngiz təntənələrlə qeyd olunması tədbirlərini əks etdirən görüntülər sözün həqiqi mənasında, alimin iş yerindəki "Xatirə muzeyi"nin "Qızıl Tac"ını təşkil edir.

"Qızıl Tac"ın mühafizəsi, həm də Heydər Əliyev ideyalarını yaşatmaq, onu olduğu kimi gələcək nəsillərə çatdırmaq deməkdir. Şəfa müəllimin müəyyən çətinliklərə baxmayaraq bu missiyanın öhdəsindən bacarıqla gələ bilməsi onun vətənə, dövlətə, xalqa və böyük müəllliminə olan səmimi rəğbət hisslərinin göstəricisidir.

"Xatirə muzeyi" nin fəaliyyətinin bütün məqamlarının ATU-nun rektoru, professor Gəray Gəraybəylinin diqqət mərkəzində olması, onun xüsusi qayğısı muzeyin bu gününə və gələcəyinə nikbinliklə baxmağa əsas yaradır.

Fərəhli haldır ki, ATU-nun nəzdində fəaliyyət göstərən indiki III cərrahi xəstəliklər kafedrasının müdiri, professor Fariz Camalov və kafedranın digər əməkdaşları – akademik M.A.Topçubaşov elmi məktəbinin birbaşa davamçıları da bu yolda dosent Şəfa Əliyevi tək qoymur, "Xatirə muzeyi"nin yaşaması naminə əllərindən gələn hər şeyi edirlər.

"Heydər Əliyev İli"nin möhtəşəmliyi fonunda Ümummilli Liderin indiki və gələcək nəsillərə etibar etdiyi dövlət müstəqilliyimizi möhkəmləndirmək, eləcə də akademik Mustafa bəy Topçubaşov kimi nadir incilərimizi – "Milli sərvətimiz, milli iftixarımız"ı göz-bəbəyimiz kimi qorumaq, bu böyük insanların müdrik ideyalarını yaşatmaq, onların zəngin irsinin qiymətli zərrələrindən lazımınca bəhrələnmək hər bir Azərbaycan vətəndaşının müqəddəs borcudur.

**Mübariz ALLAHVERDİYEV,**

*ATU-nun professoru, rektorun müşaviri*

Tağı Tağızadə - 85

# Alimə şöhrət verən zəkasının nurudur

**Sentyabrın 4-də nurlu siması, xeyirxah əməlləri, saf əqidəsi ilə adı ölkəmizin təbabət tarixinə qızıl hərflərlə yazılmış, Azərbaycanda epidemiologiya elminin banilərindən biri, əməkdar elm xadimi, tibb elmləri doktoru, professor Tağı Ələkbər oğlu Tağızadənin anadan olmasının 85 ili tamam olub.**

Bakıda, ziyalı ailəsində doğulan T.Tağızadə 1938-ci ildə orta məktəbi bitirərək Azərbaycan Tibb İnstitutunun Müalicə-profilaktika fakültəsinə daxil olub və 1942-ci ildə təhsilini fərqlənmə diplomu ilə başa çatdırıb.

T.Tağızadə əmək fəaliyyətinə 1941-ci ildə Xalq Səhiyyə Komissarlığının Elmi-tədqiqat epidemiologiya və mikrobiologiya institutunda həkim-epidemioloq kimi başlayıb. O, 1942-ci ildə Kəlbəcər rayonunda əvvəl epidemioloq və parazitoloq, sonra isə rayon səhiyyə şöbəsinin müdiri, 1943-44-cü illərdə Yevlax rayonunda sanitar-epidemioloji stansiyanın və eyni zamanda tropik stansiyanın rəisi, 1944-45-ci illərdə Quba rayon dövlət sanitar müfəttişi vəzifələrində işləyib.

1945-ci ildə T.Tağızadə Bakıya qayıdır və Tibb İnstitunun Epidemiologiya kafedrasında assistent vəzifəsinə qəbul olunur. Onun bu kafedraya gəlməsində müəllimi, ilk azərbaycanlı epidemioloq, Almaniyanın Hamburq Universitetində təhsil almış professor İsmayıl Axundov böyük rol oynayır. 1952-ci ildə namizədlik, 1964-cü ildə doktorluq dissertasiyasını müvəffəqiyyətlə müdafiə edən və bu illərdə müxtəlif vəzifələrdə çalışan T.Tağızadəyə 1965-ci ildə professor elmi adı verilir. O, 1966-cı ildə Epidemiologiya kafedrasının müdiri seçilir və 1992-ci ilə qədər bu kafedraya fasiləsiz rəhbərlik edir.

Epidemiologiya kafedrasında 53 illik əmək fəaliyyəti professor T.Tağızadəni ölkədə məşhur epidemioloq və parazitoloq alim, yüksək erudisiyalı pedaqoq, bacarıqlı təşkilatçı kimi tanıdır. Onun rəhbərliyi altında kafedra keçmiş Sovetlər İttifaqında ən iri və yaxşı təchiz edilmiş epidemiologiya kafedraları sırasına daxil olur.

T.Tağızadə öz mühazirələrini həddən artıq aydın, səlis və sadə dildə şərh etməklə yanaşı, həm də tədris materiallarını dünya tibb elminin ən yeni nailiyyətləri ilə məharətlə əlaqələndirərək tələbələrdə fənnə canlı maraq oyatmağı, onların dünyagörüşünü genişləndirməyi bacarırdı.

O hələ 1957-ci ildə bütün fakültələrin tələbələri üçün respublikada ilk dəfə olaraq Azərbaycan dilində epidemiologiyaya dair dərslik hazırlayıb çap etdirmişdi ki, bu dərslik indiyə qədər də təkcə tələbələrin deyil, həm də respublikanın çoxsaylı praktik həkim-epidemioloqlarının stolüstü kitabıdır. 1984-cü ildə o öz tələbələri ilə birlikdə Azərbaycan dilində 7 hissədən ibarət "Ümumi və xüsusi epidemiologiyaya dair dərs vəsaiti" nəşr etdirib.

Onun kafedrada 53 il ərzində leptospiroza dair apardığı elmi tədqiqatların inkişafındakı fəaliyyətini xüsusilə qeyd etmək lazımdır. Bu sahədə tədqiqatlar indi də davam etdirilir. Təkcə leptospiroz problemi üzrə şəxsən professor T.Tağızadə və onun tələbələri tərəfindən 200-ə yaxın elmi iş dərc olunub ki, onlardan 52-si beynəlxalq və ümumittifaq səviyyəli tədbirlərin materiallarında, xarici və ümumittifaq jurnallarda dərc edilib. Professor Epidemiologiya kafedrasında leptospiroz problemi ilə yanaşı, salmonelyozlar və helmintozlara da böyük diqqət yetirirdi.

1965-ci ildə professor T.Tağızadə tərəfindən keçmiş Sovet İttifaqında və Azərbaycanda ilk dəfə favizm adı altında o vaxta qədər naməlum olan yeni xəstəlik aşkar olunur. Bu illərdə vəbanın öyrənilməsinə və onunla mübarizə tədbirlərinə də böyük fikir verilirdi.



O, ölkə patologiyasının müxtəlif problemlərinə dair 263 elmi işin, o cümlədən 4 monoqrafiya, 1 dərslik, 7 dərs vəsaiti, rusca-azərbaycanca izahlı epidemioloji terminlər lüğəti, 8 elmi-kütləvi, 3 təlimati-metodik məsləhət və Zaqafqaziya respublikalarının leptospirozu üzrə qısa izahlı ədəbiyyat göstəricisinin müəllifidir. Onun elmi rəhbərliyi altında 9 doktorluq və 26 namizədlik dissertasiyası müdafiə olunub.

Professor T.Tağızadənin ictimai fəaliyyətində Azərbaycan epidemioloqları, mikrobioloqları və parazitoloqları elmi cəmiyyəti mühüm yer tutur. O, 1974-cü ildən etibarən 20 il ərzində bu cəmiyyətin idarə heyətinə sədrlik etməklə yanaşı, çoxlu cəmiyyət və elmi şuraların idarə heyətinin üzvü, elmi məsləhətçi, Azərbaycan Sovet Ensiklopediyasının və elmi-tədqiqat institutlarının elmi əsərlər külliyyatının məsul redaktoru olub.

Bir müəllim, alim və ictimai xadim kimi hərtərəfli fəaliyyəti yüksək qiymətləndirilən T.Tağızadə elm qarşısındakı böyük xidmətlərinə, geniş pedaqoji və elmi-təşkilati işinə görə "Şərəf nişanı" ordeni, D.K.Zabalotnı və K.İ.Skryabin adına xatirə medalları, keçmiş SSRİ və Azərbaycan SSR Səhiyyə nazirliklərinin fəxri fərmanları ilə təltif edilib. O, "Əməkdar elm xadimi" fəxri adına layiq görülüb, Azərbaycan SSR Ali Sovetinin fəxri fərmanı ilə təltif olunub.

Xatirəsi daim qəlbimizdə yaşayan böyük alimə ulu Tanrıdan rəhmət diləyirəm!

**İbadulla AĞAYEV,**

*Epidemiologiya və biostatistika kafedrasının müdiri, əməkdar elm xadimi, professor*

# Hematoloqlarımız Türkiyədə ölkəmizi təmsil edib

**Oktyabrın 11-dən 14-dək Türkiyənin İstanbul şəhərində baş tutan XIV Avrasiya Hematoloji Konqresinə ölkəmizin aparıcı mütəxəssisləri də qatılıb. Tədbirdə Avropa və Asiyanın bir sıra ölkələrindən gəlmiş və dünyada tanınmış alimlərin məruzələri dinlənilib.**




Ən aktual hematoloji mövzuları əhatə edən konqresdə Azərbaycan Tibb Universitetinin Tədris Terapevtik Klinikasının Hematologiya şöbəsinin müdiri, I Daxili xəstəliklər kafedrasının əməkdaşı Şəhla Şabanova "Vərəmlə assosiasiya edilən Hockin limfoması" mövzusunda məruzə ilə çıxış edib.

Məruzədə vərəmin endemik olduğu ölkələrdə Limfoproliferativ xəstəliklər üçün risk amili, müalicənin, eləcə də xəstəliyin gedişatında mənfi proqnostik faktorlar vurğulanıb. Əməkdaşımızın çıxışı iştirakçılar tərəfindən maraqla qarşılanıb və mövzu ətrafında müzakirələr aparılıb.

Qeyd edək ki, tədbir beynəlxalq əhəmiyyətli olduğu üçün bütün məruzələr ingilis dilində səsləndirilib. Konqresin işində Azərbaycan Hematologiya Mütəxəssisləri İctimai Birliyinin sədri Valeh Hüseynov, sədr müavini Xuraman Cəfərova və eləcə də birliyin fəal üzvləri iştirak ediblər.

**Azərbaycan Tibb Universitetinin Ailə təbabəti kafedrasının assistenti, t.ü.f.d. Məhəbbət Fətəliyeva Türk Dövlətlər Təşkilatı Türk Universitetlər Birliyinin Orhun mübadilə proqramı çərçivəsində Türkiyənin Ege Universitetinin Tibb bacısı (Həmşirəlik) fakültəsində pedaqoji fəaliyyət göstərib.**

# ATU-nun əməkdaşı Ege Universitetində dərs keçib



Bu barədə "Təbib" qəzetinə ATU-nun Beynəlxalq əlaqələr şöbəsinin koordinatoru Aynur Abduləliyeva məlumat verib. Onun sözlərinə görə, iki həftəlik proqram ərzində M.Fətəliyeva "Uşaq sağlığı və xəstəlikləri həmşiręliyi", "Qadın sağlığı və xəstəlikləri həmşirəliyi" və "Cərrahi xəstəliklər həmşirəliyi" kafedralarında həmin fakültənin IV kurs tələbələrinə dərs keçib.

Proqram çərçivəsində Ege Universitetinin rektoru, professor Necdət Budak, Həmşirəlik fakültəsinin dekanı, professor Ayşegül Dönməz Məhəbbət Fətəliyevanı qəbul ediblər. Rektor N.Budak Ege Universiteti ilə Azərbaycan Tibb Universitetinin əməkdaşlığından məmnunluğunu bildirib və bu əməkdaşlığın daha da inkişaf etdirilməsinin vacibliyini vurğulayıb.

# Rusiyada tibb təhsili alan tələbə ATU-dakı yay təcrübəsindən razı qalıb

**Rusiyanın Perm Dövlət Tibb Universitetinin (PDTU) Stomatologiya fakültəsinin V kurs tələbəsi Rəşad Vəliyev bu ilin yayında ATU-nun Tədris Stomatoloji Klinikasında təcrübə keçib. Bakı şəhərində yay təcrübəsi keçməsindən olduqca məmnun qalan Rəşad bu barədə PDTU-nun mətbu orqanı olan "Medik Urala" ("Uralın tibb işçisi") qəzetində məqalə dərc etdirib.**


ЗАРУБЕЖНЫЕ СТАЖИРОВКИ

ПРАКТИКА В БАКУ

ОТВЕТСТВЕННЫЙ, ОБРАЗОВАННЫЙ, ЦЕЛЕУСТРЕМЛЁННЫЙ

O, təhsil aldığı universitetin beynəlxalq şöbəsində olarkən Bakıda təcrübə keçə biləcəyini öyrəndiyini və dərhal razılaşdığını yazır: "Dörd ildir ki, Azərbaycanda olmamışdım. Əvvəlcə pandemiyaya, sonra isə digər çətinliklərə görə. Bu fürsət mənə hədiyyə olundu. Azərbaycanın möhtəşəm bir klinikasında təcrübə keçdim. Burada ən mütərəqqi texnologiyalar tətbiq edilir. Belə ki, işçilər də binaya "barmaq izi" girişi ilə buraxılır, xəstələrə xüsusi kuponlar verilir. Deməli olar ki, bütün avadanlıqlar xaricdən, əsasən də Avropadan gətirilib".

Proqrama uyğun olaraq iki həftə terapevtik stomatologiya, iki həftə isə ortopedik stomatologiya üzrə təcrübə keçdiyini yazan R.Vəliyev qeyd edib ki, klinikada çalışmaq çox maraqlı idi: "Elə bu səbəbdən hər gün iki növbəyə qalırdım. Bu müddətdə vaxtın necə keçdiyini hiss etmədim. Stomatoloji şöbədə mənə xüsusi diqqət və qayğı göstərdilər. Ağız boşluğunun peşəkar təmizlənməsini, dərin olmayan kariyesin müalicəsini də mənə etibar edirdilər. Hətta diş implantasiyasında da iştirak etmişəm. Təbii ki, xəstənin razılığını almaq lazım gəlirdi. Adətən imtina etmirdilər. Bütün işçilər mənimlə çox mehriban davranırdılar. Hər şey ətraflı, təfərrüatlı şəkildə izah edilir, bütün suallarıma dolğun cavab verilirdi".

Təəssürat yazısında Azərbaycan Tibb Universiteti ilə Perm Dövlət Tibb Universiteti arasında əməkdaşlıq memorandumu imzalandığını da xatırladan müəllif, təcrübənin sonunda testlə imtahan verdiyini, terapevtik və ortopedik təcrübəsinin komissiya tərəfindən "əla" qiymətləndirildiyini, təhsilini bitirdikdən sonra işləmək təklifi aldığını da diqqətə çatdırıb.

R.Vəliyev həftə sonları paytaxt Bakının görməli yerlərinə, o cümlədən Azərbaycanın regionlarına maraqlı səfər təəssüratlarını da oxucularla bölüşüb. Eyni zamanda ona Bakıda təcrübə keçmək imkanı yaradan hər iki universitetin rəhbərliyinə, beynəlxalq əlaqələr şöbəsinə, eləcə də müvafiq dekanlıqlara və kafedralara təşəkkürünü bildirib.

## Allah rəhmət eləsin!

Yoluxucu xəstəliklər kafedrasının əməkdaşları kafedranın laborantı Kifayət Əliyevaya qardaşı

**Qabil bəyin**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Tibbi və bioloji fizika kafedrasının əməkdaşları kafedranın dosenti Nüsrəddin Əliyevə qardaşı

**Saləddin Həsənovun**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Normal fiziologiya kafedrasının əməkdaşları kafedranın müəllimi Günel Nəsirovaya anası

**Məlahət xanımın**

vaxtsız vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Normal fiziologiya kafedrasının əməkdaşları kafedranın mühəndisi Fizuli Daşdəmirova qardaşı

**Baris bəyin**

vaxtsız vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Biokimya kafedrası əməkdaşları kafedranın preparatoru Sədaqət Salayevaya əzizi

**Səkinə Gözəlovanın**

vaxtsız vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan dili kafedrasının əməkdaşları kafedranın dosenti Zərifə Məmmədovaya qardaşı

**Nazimin**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan dili kafedrasının əməkdaşları kafedranın laborantı Nərmin Mahmudovaya dayısı

**Müsəllimin**

vaxtsız vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

## Etibarsız sayılır

Həşimli Mirkamran Yasəf oğlu (qrup 222A3a); Ahmed Kadhim Abed oğlu (qrup 218İ1b); Elham Bayrami Hamed (qrup 219A1b); İbrahimova Fidan İlqar qızının (qrup 123A5a) tələbə bileti, Doğan Haralın (qrup 118A11b) müvəffəqiyyət kitabçası itdiyi üçün etibarsız sayılır.

# Müstəqilliyin Bərpası Gününə həsr olunmuş şahmat turniri keçirilib



Azərbaycan Tibb Universitetinin Tədris İdman Kompleksində Bakı Şəhər Gənclər və İdman İdarəsinin (BŞGİİ) Nəsimi rayon sektoru və "Təbib" idman klubunun təşkilatçılığı ilə tələbələr arasında 18 oktyabr - Müstəqilliyin Bərpası Gününə həsr olunmuş şahmat turniri keçirilib.

Turnirdə 25 oğlan və 5 qız olmaqla, 30 şahmatçı tələbə iştirak edib. Bölmənin məşqçi-müəllimi, əməkdar məşqçi Kübra Bacaraninin hakimliyi ilə turnir qarışıq formada, Scheveningen sistemi üzrə təşkil edilib və 7 turdan ibarət olub. Tələbələr yarışa çox böyük həvəs və ruh yüksəkliyi ilə qatılıblar. Turnirin nəticələrinə görə, İsmayıl Daşdəmirov 1-ci, Elvin Cəfərli 2-ci, Murad Fətəlizadə 3-cü yerə layiq görülüblər. Qızlar arasında ən yüksək nəticəni Leyla Balayeva göstərib.

Turnirin bağlanış mərasimində BŞGİİ Nəsimi rayon sektorunun müdiri Yusif Babanlı və "Təbib" idman klubunun sədri Qələndər Aslanov müstəqilliyimizin bərpası tarixi və Zəfər günü barədə çıxış ediblər. Sonda qaliblərə diplom və medallar təqdim olunub.

# Əməkdaşımız tibb hüququ konqresində



5-13 oktyabr tarixlərində VI Beynəlxalq Tibb Hüququ Konqresi keçirilib. ATU-nun Əczaçılığın texnologiyası və idarəçiliyi kafedrasının assistenti, əczaçılıq üzrə fəlsəfə doktoru Aynurə Hüseynova tədbirdə iştirak edib.

Onun "Azərbaycanda əczaçılıq sahəsinin hüquqi tənzimlənməsi" mövzusunda çıxışı iştirakçılar tərəfindən böyük maraqla qarşılanıb və müzakirələrə səbəb olub. Konqres çərçivəsində "Tibb hüququ təhsili", "Biotibb hüququ", "Malpraktis", "Tibb cəza hüququ", "Vasitəçilik və barışıq", "Əczaçılıq hüququ" və s. adlar altında panel iclasları təşkil olunub, çıxışlar dinlənilib. Konqresdə, həmçinin azərbaycanlı hüquqşünas, "İnjuria" hüquq jurnalının təsisçisi Kəmalə Məmmədova da iştirak edib. Təşkilatçılar tərəfindən növbəti konfransın Azərbaycanda keçirilməsinə dair təklif irəli sürülüb.

Dünyanın müxtəlif ölkələrindən 200-ə yaxın iştirakçının qatıldığı konqres maraqlı formatda, Avropa turu həyata keçirən kruiz gəmisində baş tutub.

# Dərman firması ATU-ya tibbi ləvazimatlar hədiyyə edib

Son illərdə Azərbaycan Tibb Universitetində bir sıra yeniliklər həyata keçirilib ki, bunlardan biri də ötən il Tibb və sağlamlıq elmləri təhsili kafedrasının yaradılması olub.

Universitetimizdə təhsil alan tələbələrin klinik bacarıqlara yiyələnməsinin vacibliyi nəzərə alınaraq, kafedrada 2022/2023-cü tədris ilindən etibarən Klinik bacarıqlar fənninin tədrisinə start verilib. Bu fənn Müalicə-profilaktika fakültəsinin I və II kurs, Hərbi tibb fakültəsinin I kurs tələbələrinə tədris olunur. Tədris proqramına klinik bacarıq olaraq dərman tətbiqləri, ampula və flakondan dərman hazırlanması, əzələdaxili, dəridaxili, dərialtı və venadaxili inyeksiyaların öyrədilməsi və s. daxil edilib. Bu bacarıqların tələbələrə öyrədilməsi üçün əyani vəsait olaraq ampula, flakon, inyektor, sistem flakonu və şlanqının olması zəruridir.

"Azerimed" firması Azərbaycan Tibb Universitetində təhsil alan, insanların sağlamlığının keşiyində duracaq gələcək həkimlərin yetişdirilməsinə öz töhfəsini verib. Belə ki, adıçəkilən firma Tibb və sağlamlıq elmləri təhsili kafedrasına təmənnasız olaraq 1800 ədəd ampula (0.9% Natrii xlor 10,0), 1800 ədəd flakon (Ceftriaxone 1.0), 20 ədəd sistem flakonu (Natrii xlor 0.9% - 200 ml) hədiyyə edib. Buna görə kafedranın akademik personalı "Azerimed" firmasının əməkdaşlarına öz təşəkkürünü bildirir.

Baş redaktor
MƏĞRUR ƏLİYEV

Müəlliflərlə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.
Əlyazmalar geri qaytarılmır

Qəzet "Təbib" qəzetinin kompüter mərkəzində yığılır, səhifələnir, ATU-nun Nəşriyyat-Poliqrafiya şöbəsində çap olunur və universitet daxilində yayılır

ÜNVANIMIZ:
Mərdanov qardaşları - 98c
2-ci mərtəbə,
Tel.: 595-24-97
tabibqazeti@gmail.com

Lisenziya H - 022633
İndeks -0269
Sifariş - 0018
Sayı 800